Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

23 AVQUST 2019-cu il

№ 147 (4045)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 8 ■

# ERMƏNİSTANDA NİKOL PAŞİNYANIN NİKOL PAŞİNYANA QARŞI QOYULDUĞU DURUM BAŞLADI...



Prezidentin sərəncamı 7 ildir niyə icra olunmur - Göytəpə arxeoparkı...

■ səh. 13 ■

Təyyarəmizin Kaspi üzərində toqquşduğu cismin texniki xarakteristikası və qəzanın dinamikası barədə ekspert rəyi...

■ səh. 5 ■



Ermənistanın BMT-də daha bir Qarabağ təxribatı puç oldu

■ səh. 2 ■



Putinlə Makronun Trampsız Qarabağ müzakirələri...

■ səh. 3 ■

Dünya neft bazarında hər ötən gün Azərbaycanın dəqiq qiymət siyasəti apardığını sübut edir

■ səh. 11 ■

Bakı küçələrinin işıqlandırılmasında yeni problemlər - gündüz saat 1-dək işıq yanan yerlər var, heç yanmayan vacib yerlər var...

■ səh. 12 ■



■ səh. 4 ■

- Qırıcı təyyarəmizin qəzasının rəsmi səbəbini şübhə altına alanların arqumentsizliyi hər an üzə çıxmağa başlayır
- MiQ-29-ların quş dəstəsilə toqquşma üzündən qəzaya uğradığına dair başqa faktlar da var - bəzi sosial şəbəkə fəallarına xatırlatma...



Azərbaycanın Babakərdə üstünlük qazandığını ermənilər etiraf etmək zorunda qalır...

■ səh. 9 ■



Fərəc Quliyevin adı Xalq Cəbhəsi tarixinin ən mübahisəli məsələsində yenidən hallandı...

■ səh. 10 ■

Hüzn mərasimlərindən siyasi məqsədlərlə istifadə nümunələri - çirkin təcrübəni Azərbaycana kimlər gətirib...

■ səh. 7 ■

■ səh. 2 ■

"Rəsmi məlumatı şübhə altına almaq təyyarə qəzasını ilk dəqiqələrdən siyasiləşdirməyi qarşısına məqsəd qoyan fəaliyyətin tərkib hissəsidir"



■ səh. 6 ■

Qarabağa ABŞ yardımını dayandıran sərt arqument - Suriyada mina təmizləyən Ermənistana belə yardımlar gərək deyil...



■ səh. 6 ■

2008-ci ilin mart günlərində Ermənistanın döyüş bölgələrini əsgərsiz qoyduğu indi açılır - həmin günlərdə Azərbaycan nə edə bilərdi...



■ səh. 7 ■

Erməni mediasının azərbaycanlı ailələrdə ağır cinayət faktlarını bu qədər hallandırmasının səbəbi...



■ səh. 14 ■

Yazıçılar Birliyində köklü islahatlar necə getməlidir? - Ən tərəfsiz saydığımız yazarla maraqlı söhbət...



# MiQ-29-un qəzaya uğrama səbəbi rəsmi açıqlandı - təyyarə havada yad cisimlə toqquşub və...



**İyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları həyata keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 tipli döyüş təyyarəsinin uçuşun bort qeydiyyatçısındakı ("qara qutu"dakı) məlumatlar və uçuşun aparılması ilə bağlı digər texniki sənədlər mütəxəssislər tərəfindən təhlil edilərək öyrənilib. Baki-xeber.com xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin məlumatında deyilir.**

Məlumatda daha sonra bildirilir: "Müdafiə nazirinin əmrinə əsasən qəzanın səbəblərinin müəyyən edilməsi ilə bağlı yaradılan "Aviasiya hadisəsinin araşdırılması komissiyası"nın gəldiyi son rəyə görə, təlim-məşq uçuşlarına cəlb edilən təyyarə qəzaya uğrama anına qədər döyüş qabiliyyətli və tam saz vəziyyətdə olub.

Hadisənin baş vermə səbəblərinin öyrənilməsi onu da göstərib ki, təyyarə Xəzər dənizinə düşməzdən əvvəl havada yad cisimlə (quş və ya quş dəstəsi) toqquşub və pilot xəsarət alıb. "Qara qutu"dan əldə edilən məlumatlara əsasən pilot qəzanın qarşısını almaq məqsədilə təyyarənin idarəolunmasını bərpa etməyə cəhd göstərib. Lakin pilotun aldığı ağır bədən xəsarəti bunu mümkünsüz edib və nəticədə aviasiya vasitəsinin qəzaya uğramasına gətirib çıxarıb.

Bəzi kütləvi informasiya vasitələrində aviasiya vasitələrinin gövdəsində yerləşən bort qeydiyyatçısında ("qara qutu"sunda) olan məlumatların oxunması üzrə ölkəmizdə mütəxəssislərin və xüsusi avadanlığın olmaması barədə əsassız iddialar yer alıb.

Bildiririk ki, hər uçuşdan sonra "qara qutu"dakı məlumatlar peşəkar aviasiya mütəxəssislərimiz tərəfindən xüsusi laboratoriyada öyrənilir, təhlil edilir, uçuş barədə informasiya müəyyənləşdirilir və bunun nəticəsində hərbi pilotun qarşıya qoyulan tapşırıqları necə icra etməsi və aviasiya vasitəsinin texniki vəziyyəti barədə tam təsəvvür yaranır.

Bütün bunları nəzərə alaraq, məlum məsələyə dair qeyri-peşəkar şərhlərə və əsassız iddialara son qoyulmasını məqsədəuyğun hesab edirik".

# Aydın Quliyev: "Rəsmi məlumatı şübhə altına almaq təyyarə qəzasını ilk dəqiqələrdən siyasiləşdirməyi qarşısına məqsəd qoyan fəaliyyətin tərkib hissəsidir"



**MİQ-29 təyyarəmizin qəza səbəbləri barədə Müdafiə Nazirliyinin rəsmi mövqeyini şübhə altına alan həvəskar izah və şərhlər qeyri-adekvat, təmayüllü, diletant xarakter daşımaqla, bədxah münasibətlərin ifadə edilməsindən başqa heç bir məna kəsb etmir.**

Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Ekspertin sözlərinə görə, sırf peşəkar və elektron-texnoloji bilgilərin predmeti olan məsələləri adi diletant səviyyə və primitiv məntiqi mühakimələrlə iddialı şəkildə izah etmək cəmiyyətin diqqətini yayındırmaq, rəsmi mövqelərə inamsızlıq yaratmaq, dəxli olmadığı halda məsələni süni şəkildə siyasiləşdirmək kimi ziyanlı məqsədlərə xidmət edir: "Bu gün sosial şəbəkələrdə rəsmi dövlət mövqeyini "dahiyanə arqumentlərlə" "vurmaq" istəyənlərin əsas hissəsi məlum hadisəyə görə yas mərasimini siyasiləşdirmək istəyən uğursuz dairələrin sifarişi və təsiri altındadır. Az bir hissəsi isə sadəcə sosial şəbəkədə populyar bir mövzu üzərində gündəmə gəlməklə özünü göstərmək istəyənlərdir. Sonuncu kateqoriyaya aid olan insanlar başqalarının siyasi oyunlarında vasitəyə çevrilmək kimi vəziyyətə düşür və həm şəxsi ləyaqət, həm də insanların həssas duyğularına münasibət baxımından olduqca ziyanlı rol oynayırlar. Rəsmi mövqeni nəyin bahasına olursa-olsun təftiş etdirmək və bu işə sosial şəbəkədə mümkün qədər çox sayda insanları cəlb etmək müəyyən radikal çevrənin məqsədyönlü idarə etdiyi prosesdir. Həmin dairələrin bu prosesin gedişi və saatbasaat ona nə qədər insanın başdan çıxarılaraq cəlb edildiyinə dair müəyyən adamlardan hesabatlar qəbul etdiyi şübhəsizdir.

**Rəsmi mövqeni şübhə altına alan az sayda şəbəkə insanları radikalların mərasimdə iştirakını münasib bilmədiyi üçün matəm sahiblərindən həm də qisas almaq niyyətini həyata keçirirlər".**

Ekspert qeyd edib ki, Müdafiə Nazirliyinin rəsmi mövqeyini siyasiləşdirmək cəhdlərinin tutarsız və perspektivsiz olduğunu sübut edən saysız arqumentlər var: "Eyni tip təyyarələrin indiyə qədərki qəza tarixçələrini araşdırsalar, bir daha əmin olmaq olar ki, nə qədər kiçik fiziki maneələr və texniki səbəblərdən belə qəzalar törənə bilər. Bu gün rəsmi məlumatı şübhə altına almaq təyyarə qəzasını ilk dəqiqələrdən siyasiləşdirməyi qarşısına məqsəd qoyan dairələrin fəaliyyətinin davamı və tərkib hissəsidir. Sadəcə, bilmədən bu dairələrin siyasi toruna düşən sadə sosial şəbəkə istifadəçilərinin daha diqqətli olmalarına ehtiyac var".

# Ermənistanın BMT-də daha bir Qarabağ təxribatı puç oldu



**Ermənistan BMT-də üzvlük haqqından sui-istifadə edərək BMT-dəki nümayəndəsinin Baş katibə ünvanladığı məktubunun əlavəsi qismində Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərdəki qanunsuz separatçı rejimin kağızını yayıb.**

Baki-xeber.com xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin hesabatının BMT-də yayılması ilə bağlı kütləvi informasiya vasitələrində (KİV) dərc olunan məlumata dair KİV-in sualını cavablandırarkən belə deyib.

L.Abdullayeva xatırladıb ki, Ermənistan tərəfindən BMT, eləcə də ATƏT çərçivəsində qanunsuz separatçı rejimin kağızlarını yaymaq təcrübəsindən istifadə olunur, lakin bu heç bir halda bu təşkilatların mövqeyini əks etdirmir:

"Ermənistan tərəfinin BMT çərçivəsində növbəti təxribatına cavab olaraq ölkəmizin BMT yanında Nümayəndəliyinin BMT Baş katibinə etiraz məktubu ünvanlanıb və məktubumuz bu günlərdə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunacaq.

# Əli Həsənov maraqlı dairələrin Azərbaycanda öz koloniyasını yaratmaq istəklərinin keçmişdə qaldığını dedi

**Azərbaycan müstəqillik əldə edərkən kənar qüvvələr, qonşu və uzaq dövlətlər, burada geosiyasi, geoiqtisadi, hərbi strateji maraqları olan dairələr üçün kifayət qədər maraqlı obyekt idi və hamı burada özünün koloniyasını yaratmaq istəyirdi.**

"Trend"in məlumatına görə, bunu Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Şeyxülislam Hacı Allahşükür Paşazadənin 70 illik yubileyinə həsr olunan tədbirdə deyib.

Ə.Həsənov bildirib ki, Şeyx həzrətləri Azərbaycanın dini-mənəvi həyatında özünəməxsus nümunələr yaradıb: "O nümunələrdən biri Azərbaycanda bugünkü islam modelidir. İslam dininin normaları var ki, onlara toxunmaq, pozmaq olmaz və bu normalar olduğu kimi tətbiq olunmalıdır".

Prezidentin köməkçisi vurğulayıb ki, Hacı Allahşükür Paşazadədən danışanda onun şeyxülislamlıq fəaliyyətinin mövcud nəticələrinə dəyər verilməlidir: "Azərbaycan müstəqillik əldə edərkən Şeyxülislam ümummilli lider Heydər Əliyevin yürütdüyü müstəqil dövlətçilik siyasətinə dəstək verərək milli-mənəvi birlik modelini ortaya qoydu, onun əsas mexanizmlərini və dövlətin maraqlarına uyğun metod və vasitələrini işləyib hazırladı, bu modeli kənar təsirlərdən qorudu. Şeyxülislamlıq fəaliyyətinin müstəqillik dövründəki əsas yekunu budur. Bu gün Azərbaycanın dini adət-ənənələri, inanclı insanların davranış normaları, islami tələblərin yerinə yetirilməsi bizim milli modelimizə tam uyğundur ki, onun da təməlində məhz Şeyxülislam Hacı Allahşükür Paşazadə dayanır".

Daha sonra tədbirdə çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov bildirib ki, bu gün Azərbaycanın hər bir yerində dünyada tayı-bərabəri olmayan məscidlərimiz fəaliyyət göstərir: "Şeyx həzrətlərinin fəaliyyəti barədə geniş danışmaq olar. Bunlar danışdıqca qurtarmır. Hacı Allahşükür Paşazadə dünyada tanınan bir şəxsiyyətdir. Onun Azərbaycanın bütün ağsaqqallarının yanında çox böyük hörməti var".

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar bildirib ki, Hacı Allahşükür Paşazadə Azərbaycanın tarixində ən gənc şeyxülislam olub: "O, 30 yaşında şeyxülislam olub. Çox gənc yaşlarından ağsaqqal kimi fəaliyyət göstərib. XX və XXI əsrdə din adından çıxış edib. İslam dini sülh və barış dinidir. Mən Şeyxülislam ilə çoxdan tanışam və onun fəaliyyətini dərindən izləyirəm".



Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə qeyd edib ki, Hacı Allahşükür Paşazadə həm də siyasi və dövlət xadimidir: "O, uzun müddət Azərbaycan və SSRİ parlamentinin deputatı olub. Şeyx həzrətləri dövlətçiliyi hər zaman yüksək tutub, Azərbaycanın ən taleyüklü məsələlərində həmişə dövlətin yanında olub. Hacı Allahşükür Paşazadə həmişə dövlətin apardığı siyasəti dəstəkləyir və buna öz töhfələrini verir".

Tədbirin yekununda çıxış edən A.Paşazadə hər kəsə təşəkkür edib: "Bu gün tədbirdə söylənən bütün fikirlər mənim üçün çox xoşdur. Hər bir insan yaşadığı dövrdə istəyər ki, arxaya baxsın.

Bu gün dini təhsil alanlar çoxdur. Çünki onlar üçün müstəqillik dövründə hər bir şərait yaradılıb. Mən təhsil alanda bilmirdim ki, din xadimi, seyxülislam olacağam. Oxuyurdum ki, Allahımı, doğru yolu tanıyım. Allah-təala da bunu mənə nəsib etdi".

# Putinlə Makronun Trampsız Qarabağ müzakirələri...

**Erməni mətbuatının yazdığına görə, Parisdə səfərdə olan Rusiya lideri Vladimir Putin fransalı həmkarı Emmanuel Makronla Dağlıq Qarabağ münaqişəsini də müzakirə edib. Bu barədə Kreml sözçüsü Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib:**



"Fort Breqansonda Rusiya və Fransa prezidentlərinin görüşündə bir çox məsələ müzakirə olundu. Əsas mövzular isə "Normand formatı"nda sammitin perspektivləri, Suriyadakı vəziyyət, regional münaqişələr - Balkanlar, Dağlıq Qarabağ, eləcə də Arktikanın iqlimi və ondan istifadə edilməsi oldu".

Peskovun sözlərinə görə, danışıqlar gərgin, konstruktiv və etibarlı olub.

Məlum olduğu kimi, Rusiya ilə Fransa ATƏT-in Minsk Qrupunun həmsədrləridir. Minsk Qrupunun digər həmsədri isə ABŞ-dır. Ancaq belə məlum olur ki, Rusiya və Fransa prezidentləri ABŞ-sız Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə ediblər.

Maraqlıdır, iki həmsədr ölkənin prezidentləri Qarabağla bağlı nəyi müzakirə ediblər? Bununla bağlı ehtimallar nədən ibarətdir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bolüşən politoloq Zamin Axundov bir sıra məqamlara toxundu: "Əvvələ yeni geosiyasi mühitdə transnasional konfliktlər qlobal səviyyədə komplikasiyonları meydana çıxarsa da, faktiki olaraq, Kontinental Avropada Fransa-Rusiya münasibətləri, tarixi keçmişdə olduğu kimi, bu gün də Avrasiya geostrategiyasının formalaşması prosesində öz potensiallarının

## *Zamin Axundov: "İki ölkə prezidentinin Dağlıq Qarabağı müzakirə etməsi, ümumiyyətlə, münaqişənin diplomatik yollarla həllinə..."*

axtarışındadır və hər iki dövlətə oxşar geosiyasi qorxular bələdçilik edir. Birləşmiş Ştaların Monro doktrinası (2 dekabr 1823) və ABŞ-ın Kontinental Avropada ilk hərbi ekspansiyaları nəticədə Avrasiya Super Kontinentində qüvvələr balansının nisbətən dəyişməsinə səbəb oldu. Paralel müstəvidə İkinci Dünya Müharibəsinin nəticələri fonunda isə ABŞ kontinental Avropada ən böyük hərbi potensialı olan prinsipial imperiya dövləti kimi Avropanı iqtisadi, siyasi və hərbi-strateji planda öz nəzarəti altında saxlaya bilirdi. Lakin Bjezinskinin dediyi kimi, tarix müəyyən bir siyasi məqsədə xidmət edəndə o, komediya halını ala bilər. Bu kontekstdə Birləşmiş Ştatların Avrasiya Geostrategiyası mühüm geosiyasi məkanlarda özünə yeni tarixi rəqiblər qazandı. Faktiki olaraq, Anqlo-Amerikan müttəfiqliyinə qarşı Rusiya-Fransa strateji müttəfiqliyi defakto Avropa siyasətində özünü hiss etdirir və paralel müstəvidə bu yaxınlaşma Avrasiya Təhlükəsizlik Sistemində Franko-Rus geosiyasi müttəfiqliyini konsepsiyalaşdırır".

Politoloqun fikrincə, bu kontekstdə Makronla Putinin Transkontinental Təhlükəsizlik Sistemində, xüsusilə mövcud konfliktlərə dair geniş müzakirələr aparması yuxarıdakı geosiyasi reallıqlarla assosiasiya olunur: "Həmsədr ölkələrin dövlət başçıları səviyyəsində Dağlıq Qarabağ da daxil olmaqla, Suriya, Orta Şərq və s. konfliktlərə dair müzakirələr ABŞ-ın geosiyasi plüralizm və ya geosiyasi sabitlik ritorikasına qarşı yumşaq jest kimi dəyərləndirilsə də, bu münaqişələrin həlli perspektivini təyin etmir. Ümumi planda Rusiya-Fransa cütlüyü Avrasiyadakı münaqişələri müzakirə etməklə Avrasiya geostrategiyasındakı mövqelərini şərh etmiş olurlar. İnterpretasiyanın bu formatı daha geniş planda geosiyasi mesajdır. Lakin praktiki addımların atılması mərhələsində prinsipial mövqe deyil. Xüsusilə Putin və Makronun Dağlıq Qarabağı müzakirə etməsi, ümumiyyətlə, münaqişənin diplomatik yollarla həllinə dair qeyri-müəyyən bir baxışa işarədir və ənənəvi, standart siyasətdir. Praktika göstərir ki, bu tip konfliktlərin əsas strateji təyinatı böyük dövlətlərin xarici siyasəti üçün impulsdur və geosiyasi mahiyyət daşıyır. Burada əsas məsələ Azərbaycanın prinsipial mövqeyidir. Fransa üçün Azərbaycan əhəmiyyətli geoiqtisadi partnyor və ya geoiqtisadi lahiyələr fonunda əhəmiyyətli olduğu halda, Rusiya üçün Azərbaycanın statusu geosiyasi plasdarmdır.

*"Praktika göstərir ki, bu tip konfliktlərin əsas strateji təyinatı böyük dövlətlərin xarici siyasəti üçün impulsdur və geosiyasi mahiyyət daşıyır"*

Bu bir faktdır. Azərbaycanın rəsmi mövqeyi və prinsipial addımları bütün sahələr üzrə, məncə, daha önəmlidir. Nəhayət, Putin-Makron görüşü kompleks şəkildə Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivini meydana çıxarmasa da, daha geniş planda problemin həllinə dair geosiyasi baxışın formalaşmasında müəyyən bir mərhələdir".

***Vidadi ORDAHALLI***

# Qırıcı təyyarəmizin qəzasının rəsmi səbəbini şübhə altına alanların arqumentsizliyi hər an üzə çıxmağa başlayır

**Məlum olduğu kimi, iyulun 24-də, saat 22.00 radələrində planauyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları həyata keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 tipli döyüş təyyarəsinin uçuşun bort qeydiyyatçısındakı ("qara qutu"dakı) məlumatlar və uçuşun aparılması ilə bağlı digər texniki sənədlər mütəxəssislər tərəfindən təhlil edilərək öyrənilib.**

*"Bu hadisənin başvermə səbəbi peşəkarlardan ibarət komissiya tərəfindən araşdırılıb"*

*Rufiz Qonaqov: "Bəzi müxalif qüvvələrin rəsmi məlumatların həqiqiliyini şübhə altına almaq məqsədilə özlərindən cəfəngiyyatlar uydurub onu yaymağa cəhd göstərməsi qəbuledilməzdir"*



Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumata görə, müdafiə nazirinin əmrinə əsasən, qəzanın səbəblərinin müəyyən edilməsi ilə bağlı yaradılan "Aviasiya hadisəsinin araşdırılması komissiyası"nın gəldiyi son rəyə görə, təlim-məşq uçuşlarına cəlb edilən təyyarə qəzaya uğrama anına qədər döyüş qabiliyyətli və tam saz vəziyyətdə olub.

Qeyd edilənə görə, hadisənin başvermə səbəblərinin öyrənilməsi onu da göstərib ki, təyyarə Xəzər dənizinə düşməzdən əvvəl havada yad cisimlə (quş və ya quş dəstəsi) toqquşub və pilot xəsarət alıb. "Qara qutu"dan əldə edilən məlumatlara əsasən, pilot qəzanın qarşısını almaq məqsədilə təyyarənin idarə olunmasını bərpa etməyə cəhd göstərib. Lakin pilotun aldığı ağır bədən xəsarəti bunu mümkünsüz edib və nəticədə aviasiya vasitəsinin qəzaya uğramasına gətirib çıxarıb.

Bildirək ki, bəzi KİV-də, eləcə də sosial şəbəkələrdə aviasiya vasitələrinin gövdəsində yerləşən bort qeydiyyatçısında ("qara qutu"da) olan məlumatların oxunması üzrə ölkəmizdə mütəxəssislərin və xüsusi avadanlığın olmaması barədə əsassız iddialar yer alıb.

Rəsmi məlumatda vurğulanır ki, hər uçuşdan sonra "qara qutu"dakı məlumatlar peşəkar aviasiya mütəxəssislərimiz tərəfindən xüsusi laboratoriyada öyrənilir, təhlil edilir, uçuş barədə informasiya müəyyənləşdirilir və bunun nəticəsində hərbi pilotun qarşıya qoyulan tapşırıqları necə icra etməsi və aviasiya vasitəsinin texniki vəziyyəti barədə tam təsəvvür yaranır. "Bütün bunları nəzərə alaraq, məlum məsələyə dair qeyri-peşəkar şərhlərə və əsassız iddialara son qoyulmasını məqsədəuyğun hesab edirik" - deyə nazirliyin məlumatında bildirilir.

Bəzi dairələrin və kütləvi informasiya vasitələrinin MiQ-29 tipli döyüş təyyarəsinin qəzaya uğramasının səbəbləri ilə bağlı yayılan rəsmi məlumatı şübhə altına almaq məqsədilə əsassız iddalar irəli sürməsinə münasibət bildirən tanınmış politoloq Rufiz Qonaqov "Bakı-Xəbər"ə bildirdi ki, dövlətin yaydığı rəsmi məlumatın hər hansı bir vasitə və əsassız iddia ilə şübhə altına alınması yolverilməzdir. "Bəzi media orqanlarında, eləcə də sosial şəbəkələrdə yer alan iddiaların heç bir əsası yoxdur. Bilirik ki, radikal müxalif qüvvələr bəzi təbiət hadisələrindən, baş verən qəza olaylarından şou yaratmağa cəhd göstərirlər. Onlar bundan ümid yeri yaradıb öz xeyirlərinə istifadə etmək istəyirlər. Aydındır ki, yalnız Azərbaycanda deyil, bütün dünyada həm hərbi, həm kəşfiyyat, həm də sərnişin təyyarələri ilə bağlı belə qəzalar baş verir və bundan da heç bir ölkədə şou düzəldilmir. Hətta bu yaxınlarda Rusiyada sərnişin təyyarəsi böyük bir qağayı kütləsi ilə üz-üzə gəlmişdi və pilot təyyarəni taxıl zəmisinə endirmişdi. Yəni belə hadisələr qaçılmazdır.

Çox təəssüf ki, bizim pilot da təlim-məşq zamanı belə bir qəzaya uğrayıb və həlak olub. Əlbəttə, bu hadisə özbaşına baş verməyib. Rəsmi məlumatda qeyd edildiyi kimi, təyyarəyə maneə olub ki, bu hadisə baş verib. Ortada konkret rəsmi məlumat var. Bu hadisənin başvermə səbəbi peşəkarlardan ibarət komissiya tərəfindən araşdırılıb. Bu hadisə bir-iki gün ərzində araşdırılmayıb ki, bunun üçün xeyli zaman sərf olunub. Bilirsiniz ki, cənab Prezident olayın başvermə səbəbi ilə bağlı komissiyanın yaradılması ilə bağlı göstəriş vermişdi. Komissiya araşdırma aparıb və qəzanın nəticələri haqqında ictimaiyyətə düzgün, dolğun məlumat verib.

**Lakin bəzi müxalif qüvvələrin rəsmi məlumatların həqiqiliyini şübhə altına almaq məqsədilə özlərindən cəfəngiyyatlar uydurub onu yaymağa cəhd göstərməsi qəbuledilməzdir. Hesab edirəm ki, baş verən hadisə ilə bağlı yayılan rəsmi məlumatı bəzilərinin şübhə altına alması əsassızdır, onların bu iddiası cəfəngiyyatdan başqa bir şey deyil" - deyə R.Qonaqov vurğuladı.**

*İradə SARIYEVA*



# MiQ-29-ların quş dəstəsilə toqquşma üzündən qəzaya uğradığına dair başqa faktlar da var - bəzi sosial şəbəkə fəallarına xatırlatma...

**Azərbaycanın Müdafiə Nazirliyi bu günlərdə "MiQ-29" təyyarəsinin qəzaya uğramasının səbəblərinə dair məlumat yayıb. Bildirilib ki, qəzanın səbəbi havada quş sürüsü ilə toqquşma olub. Müdafiə nazirinin əmrinə əsasən, qəzanın səbəblərinin müəyyən edilməsi ilə bağlı yaradılan "Aviasiya hadisəsinin araşdırılması komissiyası"nın gəldiyi son rəyə görə, təlim-məşq uçuşlarına cəlb edilən təyyarə qəzaya uğrama anına qədər döyüş qabiliyyətli və tam saz vəziyyətdə olub.**

Hadisənin başvermə səbəblərinin öyrənilməsi onu da göstərib ki, təyyarə Xəzər dənizinə düşməzdən əvvəl havada yad cisimlə (quş və ya quş dəstəsi) toqquşub və pilot xəsarət alıb. "Qara qutu"dan əldə edilən məlumatlara əsasən, pilot qəzanın qarşısını almaq məqsədilə təyyarənin idarə olunmasını bərpa etməyə cəhd göstərib. Lakin pilotun aldığı ağır bədən xəsarəti bunu mümkünsüz edib və nəticədə aviasiya vasitəsinin qəzaya uğramasına gətirib çıxarıb.

O da məlumdur ki, qəza baş verəndə sosial şəbəkələrdə bəzi söz-söhbətlər yayıldı. Müxtəlif reallıqdan uzaq versiyalar səsləndi. Qəzanın səbəbləri bəlli olandan sonra da buna qərəzli yanaşanlar və digər versiyalar irəli sürənlər var. Ancaq dünyada MiQ-29 hərbi təyyarəsinin quş sürüsü ilə toqquşub qəzaya uğraması halları olub. Bununla bağlı internet üzərindən müəyyən araşdırmalar apardıq.

Bu məlumatlar bu gün Azərbaycan Müdafiə Nazirliyinin qəza barədə rəsmi məlumatını şübhə altına alanlara tutarlı cavab olacaq. Onlar qəzanı siyasiləşdirmək istəyənlərin əlində alət olduqlarını bir daha anlayacaqlar.

Qeyd edək ki, ilk uçuşunu 1977-ci ilin oktyabr ayında etmiş MiQ-29 döyüş təyyarəsi silahlanmaya 1983-cü ildə qəbul edilib və bu günədək 1600-ə yaxın istehsal olunub. Hazırda 25 dövlətin silahlanmasında ən azı 750-800 ədəd MiQ-29 təyyarəsi aktiv şəkildə yer alır. Silahlanmaya qəbul edildiyi 1983-cü ildən bu günədək dünyada MiQ-29 təyyarəsi ilə bağlı 50-dən çox qəza hadisəsi baş verib. Belə ki, müxtəlif qəza hadisələri (mühərrikin sıradan çıxması, toqquşma, sərt eniş zamanı idarəetmənin itirilməsi) zamanı 35 pilot sağ qalıb. 16 pilot katapult edə bilməyərək, 7 pilot katapult edərək həlak olub.

MiQ-29 təyyarələri ilə bağlı 5 sentyabr 1986-cı ildə Lipetskdə baş verən qəza məhz təyyarənin quşla toqquşması nəticəsində baş verib. Nəticədə pilot idarəetməni itirib. Bu zaman MiQ-29 təyyarəsi komanda-nəzarət binasının üzərinə düşüb. Nəticədə 16 nəfər, o cümlədən, pilot özü həlak olub.

Bu cür toqquşmalar zamanı təyyarələrin zədələnməsi onların yüksək sürəti ilə bağlıdır. Belə ki, zərbənin gücü sürət fərqinin kvadratına mütənasibdir. Məsələn, 320 km/saat sürətlə gedən təyyarə quşla toqquşsa, zərbənin gücü 3200 kilo/sm kv.-ya yaxın, 690 km/saat sürətdə isə 30 millimetrlik mərminin zərbəsindən 3 dəfə çoxdur. Üstəlik, təyyarənin məhz ön hissəsində pilot kabinasının şüşələri və turbo reaktiv mühərrik kimi həssas nöqtələr var.

Məlumat üçün bildirək ki, yüksək sürətlə hərəkət edən döyüş təyyarələrinin havadakı kiçik cisimlərlə, o cümlədən də quşlarla toqquşması halları təkcə MiQ-29 timsalında özünü göstərməyib. Digər hərbi təyyarələrin də quşla toqquşması halı baş verib.

Bu il iyun ayının 27-də isə Hindistan Hərbi Hava Qüvvələrinə məxsus "Jaguar" qırıcı-bombardmançı təyyarəsi uçuşdan dərhal sonra quş dəstəsilə toqquşub. Pilot təhlükədən qorunmaq üçün təyyarədəki raketləri və yanacaq çənini təyyarədən kənara atıb və bu zaman yerə düşən raketlər dəhşətli partlayışa səbəb olub. Onu da bildirək ki, bu hadisə videokamera vasitəsilə qeydə alınıb.

*Vidadi ORDAHALLI*

# Təyyarəmizin Kaspi üzərində toqquşduğu cismin texniki xarakteristikası və qəzanın dinamikası barədə ekspert rəyi...

## **Nazim Bayram:** *"İldə təxminən 5000-ə yaxın belə hadisə olur"*

**Azərbaycan Müdafiə Nazirliyi iyulun 24-də, saat 22.00 radələrində təlim-məşq uçuşları həyata keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 tipli döyüş təyyarəsinin "qara qutusundakı" məlumatları açıqlayıb.**

Həmin rəsmi məlumatda bildirilir ki, iyulun 24-də, saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları həyata keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 tipli döyüş təyyarəsinin uçuşun bort qeydiyyatçısındakı ("qara qutu"dakı) məlumatlar və uçuşun aparılması ilə bağlı digər texniki sənədlər mütəxəssislər tərəfindən təhlil edilərək öyrənilib.

Qeyd olunub ki, müdafiə nazirinin əmrinə əsasən, qəzanın səbəblərinin müəyyən edilməsi ilə bağlı yaradılan "Aviasiya hadisəsinin araşdırılması komissiyası"nın gəldiyi son rəyə görə, təlim-məşq uçuşlarına cəlb edilən təyyarə qəzaya uğrama anına qədər döyüş qabiliyyətli və tam saz vəziyyətdə olub: "Hadisənin baş-vermə səbəblərinin öyrənilməsi onu da göstərib ki, təyyarə Xəzər dənizinə düşməzdən əvvəl havada yad cisimlə (quş və ya quş dəstəsi) toqquşub və pilot xəsarət alıb. "Qara qutu"dan əldə edilən məlumatlara əsasən, pilot qəzanın qarşısını almaq məqsədilə təyyarənin idarə olunmasını bərpa etməyə cəhd göstərib. Lakin pilotun aldığı ağır bədən xəsarəti bunu mümkünsüz edib və nəticədə aviasiya vasitəsinin qəzaya uğramasına gətirib çıxarıb.

Bəzi kütləvi informasiya vasitələrində aviasiya vasitələrinin gövdəsində yerləşən bort qeydiyyatçısında ("qara qutu"da) olan məlumatların oxunması üzrə ölkəmizdə mütəxəssislərin və xüsusi avadanlığın olmaması barədə əsassız iddialar yer alıb.

Bildiririk ki, hər uçuşdan sonra "qara qutu"dakı məlumatlar peşəkar aviasiya mütəxəssislərimiz tərəfindən xüsusi laboratoriyada öyrənilir, təhlil edilir, uçuş barədə informasiya müəyyənləşdirilir və bunun nəticəsində hərbi pilotun qarşıya qoyulan tapşırıqları necə icra etməsi və aviasiya vasitəsinin texniki vəziyyəti barədə tam təsəvvür yaranır.

Bütün bunları nəzərə alaraq, məlum məsələyə dair qeyri-peşəkar şərhlərə və əsassız iddialara son qoyulmasını məqsədəuyğun hesab edirik".

Qeyd edək ki, açıqlanan bu məlumatdan sonra da mövzu ətrafında müzakirələr davam edir. Hətta qırıcı təyyarənin səmada yad cisimlə toqquşub qəzaya uğraya bilməsi faktını ironik şəkildə şərh edənlər də tapılır.

Bütün bu məsələlərə aydınlıq gətirmək üçün uyğun sahənin mütəxəssisi, hərbi icmalçı Nazim Bayramla söhbətləşdik. Ekspert "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Müdafiə Nazirliyinin verdiyi məlumat tam inandırıcıdır: "Bəzən buna skeptik yanaşaraq, diletant səviyyəsində şərhlər verirlər. Heç iddialarını, nəyisə inkar etmələrini əsaslandıra da bilmirlər. Belə hadisələr dünyanın hər yerində baş verir. Təyyarə göydə yad cisim kimi ya başqa təyyarə ilə toqquşa bilər, ya da quş sürüsü ilə. Bu aspektdə başqa yad cismi təsəvvür etmək mümkün deyil. Adətən quşlar 100-200 metr hündürlükdə uçurlar. Yalnız köçəri quşlar bir qədər hündür məsafədən uçurlar. Köçəri quşlar dəstə ilə uçur və onların köçünə gecə saatlarında rast gəlinmir. Böyük ehtimalla, qırıcı təyyarə aşağı məsafədə uçan quşlar və ya quşla toqquşub. Çünki təyyarə gecə saatlarında etdiyi təlim uçuşları zamanı qəzaya uğrayıb. Görünür, təyyarə təlim uçuşunu Xəzərin üstündə etdiyi üçün çox da hündürdən uçmayıb. Nisbətən aşağı məsafədə manevrlər edib. Həmin məsafədə yüksək sürətlə uçan təyyarənin quşla və ya quş sürüsü ilə toqquşma ehtimalı mümkündür. Belə toqquşma zamanı pilotun kabinasının şüşəsi dağıdıla bilər. Belə olan halda, təbii ki, pilot müəyyən xəsarət almış olar. Çox adam deyir ki, quşun nə ağırlığı və ya nə çəkisi var ki, pilotun kabinasını dağıtsın. Bu, məsələyə səthi yanaşmadır. Burada elmi təhlil lazımdır. Biz fizikadan da bilirik ki, sürət çox şeyə qadirdir. İki yad cisim yüksək sürətlə bir-biri-lə toqquşursa, onda kütlə də artmış olur. Hətta quşun çəkisi 100 qram olsa belə, onun saatda 300-400 km sürətlə uçan təyyarəyə çırpılması əsl mərmi effekti verə bilir".



*"Keçən il bənzər bir hadisə İsveçrədə olmuşdu, ancaq pilot son anda katapult oluna bilmişdi"*

Nazim Bayramın sözlərinə görə, birmənalı olaraq, qəzaya səbəb bu amil olub: "Quşların təyyarələrin qəzasına səbəb olması ilk hal deyil ki, baş verir. Mən buna olan reaksiyaları anlaya bilmirəm. Hətta quşların təyyarələrin mühərrikinə girdiyi halına da tez-tez rast gəlinir. Təsadüfi deyil ki, dünyanın bütün aeroportlarında quşlarla mübarizə aparan xüsusi xidmət fəaliyyət göstərir. Deməli, belə təhlükələr var ki, bu xidmət yaradılıb. Bir anlıq təsəvvür edin ki, avtomobillə 120 sürətlə hərəkət edirsiniz. Bu zaman lap balaca bir quş ön şüşəyə çırpılır. Təbii ki, şüşəni sındırıb sürücüyə xəsarət yetirə bilər. İndi təyyarənin bundan dəfələrlə böyük sürətlə hərəkət etdiyini təsəvvür edin. Mən bir neçə gündür bu məsələni şərh edirəm. Dünya praktikasında belə hallar heç də az olmur. İldə təxminən 5000-ə yaxın belə hadisə olur. Düzdür, bu o demək deyil ki, hamısı ölüm və ya təyyarənin məhv olması ilə nəticələnir. Bu göstərici həm hərbi, həm də mülki təyyarələrə aiddir".

Ekspert bildirdi ki, burada hansısa başqa məna axtarmaq doğru olmaz: " Statistikaya görə, Azərbaycan hərbi aviasiya sahəsində o qədər də çox təyyarə itirməyib. Buna görə də baş verən hadisəyə adi qəza kontekstindən yanaşılmalıdır. Keçən il bənzər bir hadisə İsveçrədə olmuşdu, ancaq pilot son anda katapult oluna bilmişdi. Mənim versiyam budur ki, Rəşad Atakişiyev xəsarət alandan sonra katapult olub canını qurtarmaq istəməyib, o çalışıb ki, təyyarəni xilas etsin. Yəni sona qədər mücadilə aparıb, amma səhhəti buna imkan verməyib. Pilotun katapult olunmaması daha çox təyyarənin ani vurulma halında baş verir. Pilot xəsarət alsa da, sona qədər əsl şərəfli zabit kimi davranıb".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda 2008-ci ilin 1 mart hadisələri ilə bağlı mətbuatda yayılan istintaq materiallarında bir sıra maraqlı məqamlar üzə çıxıb. Belə ki, Ermənistan Baş Qərargahının Kəşfiyyat İdarəsinə 10 il başçılıq etmiş general Arşak Karapetyanın istintaqa şahid qismində verdiyi ifadələr geniş rezonans doğurub.**

# 2008-ci ilin mart günlərində Ermənistanın döyüş bölgələrini əsgərsiz qoyduğu indi açılır - həmin günlərdə Azərbaycan nə edə bilərdi...

## *İbrahim Rüstəmli: "Hərbi nöqteyi-nəzərdən bu bizə hücum etmək üçün əlverişli zəmin yaradırdı"*




Qeyd edək ki, Ermənistan ordusunun 2016-cı ilin aprel döyüşlərində aldığı zərbələrə görə Serj Sarkisyan tərəfindən işdən çıxarılan, lakin hazırda Baş nazir Paşinyanın müşaviri olan general Karapetyan həmin hadisələr zamanı Azərbaycanla cəbhə xəttindən qoşunların çıxarılıb İrəvana göndərilməsindən danışıb. Karapetyan ifadəsində deyir ki, silahlı qüvvələrin komandanlığının 2008-ci ilin fevral-mart aylarında Azərbaycan Silahlı Qüvvələrinin cəbhənin müxtəlif istiqamətlərində, xüsusən də Qarabağda cəmləşdiyi bir vaxtda qoşunları İrəvana aparmasını anlamırdı. Ordunun bəzi hissələri üçün isə bu yerdəyişmə qəbuledilməz idi. Generalın bildirdiyinə görə, nəinki Qarabağdan, hətta Ermənistan-Azərbaycan sərhədindən də qüvvələr çıxarılaraq İrəvana aparılıb.

Bundan əvvəl BBC-nin rus xidməti istintaq sənədlərinə istinadən Qarabağdan İrəvana göndərilən qoşunlara işğal edilmiş ərazilərdə yaradılan qanunsuz "hərbi birləşmə"nin "komandir müavini", Ohanovski ləqəbi ilə tanınan general-mayor Samvel Karapetyanın komandanlıq etdiyini bildirib. Dindirilmədə isə erməni general qeyd edir ki, 2008-ci il fevralın 23-də general-polkovnik Movses Akopyanla birlikdə Köçəryanın keçirdiyi müşavirədə iştirak edib. Bundan 2 saat sonra Qarabağdakı müxtəlif bölmələrdən toplanmış döyüşçülərdən tabor təşkil etməyə və İrəvana göndərməyə dair əmr alıb. Karapetyanın dediyinə görə, tərkibində komandiri olduğu snayperlər də olmaqla, İrəvana 300 hərbi qulluqçu ilə gəlib.

Belə məlum olur ki, 2008-ci ilin martında Ermənistan hakimiyyəti döyüş bölgələrindən əsgərləri çıxararaq İrəvana göndərib. Nəticədə, faktiki olaraq, cəbhədə vəziyyətin dəyişməsi üçün əlverişli zəmin yaranıb. Maraqlıdır, belə vəziyyətdə Azərbaycan nə edə bilərdi?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, bu cür vəziyyətlər hərbdə şans kimi dəyərləndirilir: "Döyüş əməliyyatlarında hər bir anın özünün hökmü olur. Belə bir anı hər zaman dəyərləndirmək lazımdır. Ancaq böyük miqyasda hərbi əməliyyatların keçirilməsi, bəzilərinin düşündüyü kimi, o qədər də asan məsələ deyil. Bəli, hərbi nöqteyi-nəzərdən bu bizə hücum etmək üçün əlverişli zəmin yaradırdı. Ancaq bunun siyasi tərəflərin də unutmaq olmaz. Çünki genişmiqyaslı əməliyyatlara başlamaq üçün siyasi qərarlar olmalıdır. Yəni o əməliyyatın həyata keçirilməsi,

*"Ancaq siyasi baza, zəmin olmadan hər hansı bir hərbi əməliyyatın keçirilməsi böyük risqdir"*

planlaşdırılması və strateji-taktiki baxımdan əməliyyatın reallaşdırılması üçün onun siyasi bazası olmalıdır. Siyasi baza, zəmin olmadan hər hansı bir hərbi əməliyyatın keçirilməsi böyük risqdir. Bax, məsələnin bu tərəfi var. Siyasi zəmin olmadan ciddi uğur qazanmaq çətindir. Hətta deyərdim ki, mümkün deyil. Azərbaycan Ordusu hücuma keçəndə beynəlxalq müstəvidə siyasi dəstək olmalıdır. Azərbaycan Ordusu üçün Ermənistan işğalçı qüvvələrini işğal olunmuş ərazilərdən vurub çıxarmaq çətin deyil. Bizim çox güclü ordumuz və peşəkar, döyüşməyi bacaran hərbçilərimiz var. Bunu bir çoxu gözəl anlayır və qəbul edir. Ancaq məsələ ondadır ki, Ermənistanın arxasında dayanan güclər buna imkan vermək istəmirlər. Bax, budur əsas problem. 2008-ci ildə yaranan situasiyaya nəzər salsaq görərik ki, Köçəryandan sonra Sarkisyanın prezident olması Rusiyanın maraqlarına uyğun idi. Belə situasiyada bizim hərbi əməliyyatlara başlamağımız, məncə, Rusiyanın siyasi etirazına səbəb ola bilərdi. Ona görə də tək hərbi nöqteyi-nəzərdən məsələyə yanaşmaq yetərli deyil. Bunun siyasi tərəfləri də nəzərə alınmalıdır".

***Vidadi ORDAHALLI***

---

**Ermənistan KİV-i ABŞ administrasiyasının İrəvana maliyyə yardımlarını dayandıracağı ilə bağlı həyəcan təbili çalır. Bildirilir ki, ABŞ rəsmiləri bu mövzuda Ermənistan rəhbərliyi ilə müzakirə aparmağa hazırlaşırlar. Qeyd olunur ki, 2015-ci ildən bu tərəfə onlar Ermənistana yardımı iki dəfə çoxaldıblar.**

# Qarabağa ABŞ yardımını dayandıran sərt arqument - Suriyada mina təmizləyən Ermənistana belə yardımlar gərək deyil...

## *Elşən Mustafayev: "Belə çıxır ki, 18 ildir ora minaları özləri basdırıb, özləri də çıxarır?"*




Buna baxmayaraq, yardım paketinin yenidən nəzərdən keçirilməsinə zərurət yaranıb.

Xüsuilə də ABŞ hakimiyyətinin Ermənistana Dağlıq Qarabağda minaların təmizlənməsi üçün ayırdığı vəsaitin dayandırılacağına dair fikir bildirilib. Yardımın donoru olan Brok Bilman bildirib ki, əldə olunan nəticə ilə razıdırlar: "18 il davam edən proqram çərçivəsində minadan təmizlənmə 97,9 faiz təşkil edib. Erməni ekspertlər qeyd edirlər ki, ABŞ-ı belə qərar verməyə vadar edən amil Ermənistanın Suriyadakı humanitar missiyada yer almasıdır. Doğrudan da paradoksal vəziyyət yaranır. Ermənistanın özünün pulu yoxdursa, o, Suriyada hansı humanitar missiyanı həyata keçirə bilir? Erməni ekspertlər qeyd edirlər ki, həmin işi həyata keçirən Britaniyanın "HALO Trust" təşkilatı yenidən ABŞ rəhbərliyinə müraciət edib ki, proqram bərpa edilsin.

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, ABŞ-ın, ümumiyyətlə, Ermənistana Qarabağda hansısa layihəni icra etmək üçün vəsait ayırması qanunsuzdur: "Bəllidir ki, Ermənistana müxtəlif adlarla ayrılan pulları İrəvan Dağlıq Qarabağda işğal amilini genişləndirməyə sərf edir. Dağlıq Qarabağdakı minalar niyə Ermənistana ayrılan vəsait hesabına təmizlənməlidir? Bunlar bir bəhanədir, sadəcə, bu adla Dağlıq Qarabağdakı separatçılara vəsait ötürülür. Niyə ermənilərdən soruşmurlar ki, həmin minaları kim basdırıb? Ən başlıcası isə budur ki, Azərbaycanın ərazi vahidində həmin işi öz ölkəmiz görməlidir. Dağlıq Qarabağ işğal altındadırsa, onda belə çıxır ki, 18 ildir ora minaları özləri basdırıb, özləri də çıxarır? Bu layihə başdan-ayağa kimi saxtadır. Britaniyanın icraçı təşkilatı oradan pul qazandığı üçün canfəşanlıq edir. Suriya ilə bağlı məsələ isə çox dəqiq qoyulub. Doğrudan da bir ölkə gedib xaricdə humanitar yardım göstərirsə, başqalarından niyə pul dilənir? ABŞ administrasiyasının maliyyələşməni dayandırmaqla bağlı verdiyi anonsu diqqətdə saxlamalıyıq. Görürsünüz ki, ermənilər böyük səylərlə proqramı bərpa etmək istiqamətində çalışırlar.

**Rəsmi Bakı hər zaman həmin proqrama etiraz edib. İndi etiraz səmərə veribsə, onu axıra çatdırmalıyıq. Burada başqa amilin də işartıları görünür. Ermənistanın Suriyadakı missiyadakı iştirakı Rusiyanın təşəbbüsü ilə olub. ABŞ bununla onlara demək istəyir ki, Rusiyaya qulaq asıb, onların sifarişi ilə oturub-durursunuzsa, onda gedin pulu da onlar sizə versin".**

***Məhəmmədəli QƏRİBLİ***

# Hüzn mərasimlərindən siyasi məqsədlərlə istifadə nümunələri - çirkin təcrübəni Azərbaycana kimlər gətirib...

**Qəzaya uğrayan hərbi pilot Rəşad Atakişiyevin dəfn mərasimi ilə bağlı məsələni siyasiləşdirməyə olan cəhdlər bir qrup radikal müxalifət fəalı tərəfindən davam etdirilir. Bu məsələyə əsas katalizatorluq edən qüvvə isə Əli Kərimlinin başçılıq etdiyi AXCP və onun fəallarıdır.**



Onlar dəfn mərasimini siyasiləşdirmək kimi cəhdlərin qarşısını almaqla bağlı pilotun doğmalarının etdikləri müraciəti hakimiyyətin ayağına yazmaq istəyirlər.

Xarırladaq ki, mərhum pilotun qaynatası hadisənin siyasiləşməsinin tərəfdarı olmadığını bildirərək, müxalif siyasi partiyalara müraciət etdi ki, mümkün qədər, dəfndə iştirak etməsinlər. Bundan sonra bəzi müxalif liderlər mərhumun ailəsinin istəyinə uyğun olaraq, KİV və sosial şəbəkələrdə başsağlığı verməklə kifayətləndilər.

Ancaq Əli Kərimli məsələni sırf hakimiyyətin təzyiqi kimi qiymətləndirərək, bunu aparteidlə müqayisə etdi. Ən başlıcası budur ki, həmin qüvvə yas mərasimləri ilə bağlı məsələni milli-mənəvi dəyərlərlə bağlayıb, orada siyasi heç bir motivin olmadığını önə çəkir. Bildirirlər ki, sakit şəkildə gedib şəhidin dəfnində iştirak etməkdə heç bir siyasi çalar ola bilməzdi. Ancaq müşahidələr göstərir ki, məhz həmin şəbəkə və onlara aid funksionerlər dəfn və ümumxalq hüzn günlərində özlərini heç də məclisin ahənginə uyğun şəkildə aparmayıblar. Buna misal kimi, mərhum prezident, AXCP sədri Əbülfəz Elçibəyin dəfnində baş verənləri göstərmək olar. Həmin vaxt digər mərhum prezident Heydər Əliyev Əbülfəz Elçibəyin ailəsinə başsağlığı vermək üçün şəxsən özü mərhumla vidanın keçirildiyi Milli Elmlər Akademiyasının inzibati binasına gəldi. Həmin mərasimdə şəxsən iştirak edən adamların bir çoxu deyir ki, Heydər Əliyevin məclisdə çıxış etmək kimi fikri olmayıb. Çünki təcrübəli siyasətçi bilirdi ki, onun ən nəcib davranışı və ifadələrindən radikallar siyasi məqsədlər üçün istifadə edə bilərlər. Ona görə də mərhum Heydər Əliyev məhz hüzn mərasiminin qaydalarına, el-obamızın adətlərinə uyğun şəkildə davrandı. Ancaq qarşı tərəf, məhz Əli Kərimlinin təmsil olunduğu elektorat həmin vaxt həm Elçibəyin ruhuna, həm də Heydər Əliyevin şəxsiyyətinə böyük saygısızlıq edərək, səs-küy salıb, yersiz şüarlar səsləndirdilər. Elə həmin hadisədən görünür ki, dəfn mərasimlərini siyasiləşdirməkdə kimlər maraqlı olub. Biz analoji hadisəni mərhum jurnalist Elmar Hüseynovun dəfnində də müşahidə etdik. Onda da radikal müxalifət müxtəlif təkliflər irəli sürdü. Hiss olunurdu ki, Elmar Hüseynovun dəfnindən hətta hakimiyyətə gəlmək üçün istifadə etmək planları olub. Analoji addımları biz Əli Kərimlinin timsalında ümumxalq hüzn və anım günlərində də görmüşük. Məsələn, 20 Yanvar, Xocalı faciələri ilə bağlı anım mərasimində onun tərəfdarları ilə göstərdikləri siyasi şoular hamının gözü önündə yaşanıb. Bütün bunlardan hansı nəticələri çıxarmaq olar? Dəfndən siyasi məqsədlərlə istifadə nümunələri nəyi deməyə əsas verir?

2000-ci ildə mərhum Elçibəyin dəfn mərasimində şəxsən iştirak edən və mərhum Heydər Əliyevlə bağlı yaşanan səhnəni müşahidə etmiş ictimai-siyasi fəal Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Əli Kərimli və onun dəstəsinin canfəşanlığı anlaşılandır: "İş burasındadır ki, Əli Kərimli bütün addımlardan öz məqsədi üçün istifadə etməyi düşünür. Onun üçün yalnız bir amal var: hakimiyyətə gəlib, kimlərdənsə qisas almaq. Niyyət saf olmadığı üçün, hədəfə doğru atılan bütün addımlar təqdir ediləsi deyil. Bəli, yaxın siyasi keçmişimizdə dəfn mərasimindən siyasi məqsədlər üçün istifadə etmək kimi addımlar məhz radikal müxalifətin interaktivinə yazılıb. Elçibəyin dəfnində şəxsən iştirak etmişəm. Mərhum Heydər Əliyev əsl dövlət əxlaqı, əsl Azərbaycan kişisi kimi davranış nümayiş etdirdi, ancaq bu gün Əli Kərimlinin təmsil etdiyi bir qrup qaragüruhçu orada, sözün əsl mənasında, tərbiyəsizlik etdi. Sizi inandırım ki, həmin mənzərəni bir anlıq Elçibəyin özü görmüş olsaydı, onları hamıdan çox özü lənətləyərdi.

Əli Kərimli niyə məhz son tədbirdə iştiraka can atırdı? Adamın ailəsi səni orada görmək istəmirsə, niyə inad edirsən? Elə buradan görünür ki, onun məqsədi heç də şəhidi yad etmək olmayıb. Sadəcə, həmin tədbirdən fotolar çəkdirib paylaşmaq istəyib, eyni zamanda, müsahibə verib dividend əldə etməyi planlayıb. Gördüklərimizdən belə nəticəyə gəlirik ki, bir qrup radikal üçün heç bir meyar amili qalmayıb. Ən maraqlısı isə budur ki, müraciəti edən Qabil Hüseynli olub, Əli Kərimli isə hakimiyyəti hədəf seçib. Son hadisədə ənənələrinə uyğun davranıb, siyasi dividend əldə edə bilmədikləri üçün belə aqressivlik nümayiş etdirirlər".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni mediasının azərbaycanlı ailələrdə ağır cinayət faktlarını bu qədər hallandırmasının səbəbi...

**Başdan-ayağa çirkab, zorakılıq içində olan, bir sözlə, zülmün ərşə çıxdığı Ermənistan cəmiyyətində bütün növ cinayətlər törədilir. Həmin ölkədə ailə-məişət zəminində də kifayət qədər qətl, zorakılıq hadisələri baş verir. Lakin Ermənistan mətbuatı belə məsələlərin tirajlanmasına elə də əhəmiyyət vermir.**



*Azər Həsrət: "Azərbaycanda ailə-məişət zəminində baş verən hadisələri tirajlayıb yaymaqla dünyaya göstərmək istəyirlər ki, baxın, bu ölkədə ata oğulu, ana qızını, qardaş qardaşı öldürür, azərbaycanlılar vəhşi xalqdır və biz onlarla birlikdə yaşaya bilmərik"*

Azərbaycanda baş verən hadisələri addım-addım izləyən erməni mediası ölkəmizdə yaşanan kiçik bir məişət hadisəsini belə kütləvi olaraq tirajlamağa maraq göstərir.

Respublikamızda ailə-məişət zəminində təsadüfən baş verən qətl olayı, eləcə də hansısa zorakılıq halları dərhal erməni mediasında gündəmin əsas xəbərlərinə çevrilir. Əlbəttə, onlar bu informasiyanı Azərbaycan mediasına istinadən verirlər.

Bu günlərdə Tovuzda oğulun atasını təqaüd kartına görə çəkiclə öldürməsi hadisəsi, demək olar ki, bir sıra erməni mediasında xəbərə çevrilib və tirajlanıb. Bu xoşagəlməz hadisə Azərbaycanda baş verən nadir hadisələrdən biridir və bunun Ermənistana heç bir aidiyyəti yoxdur. Bu olayın və ailə-məişət zəminində baş verən digər hadisələrin Ermənistan mətbuatı tərəfindən geniş şəkildə tirajlanmasının səbəbi nə ilə bağlıdır?

Media üzrə tanınmış ekspert, respublikanın əməkdar jurnalisti Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, ermənilərin Azərbaycan cəmiyyətində baş verən ən xırda cinayət hadisələrini belə tirajlamaqda əsas məqsədləri beynəlxalq ictimaiyyətdə azərbaycanlılarla bağlı "vəhşi, zorakı" xalq obrazı yaratmaqdır. A.Həsrət hesab edir ki, ermənilər beynəlxalq ictimaiyyətdə bizimlə bağlı yanlış təsəvvürlər yaratmaq üçün ölkəmizdə ailə-məişət zəminində baş verən hadisələri tirajlamağa meyl edirlər. "Əlbəttə, ermənilərin maraq və məramı aydındır, onlar bu məlumatları məqsədli şəkildə tirajlayırlar. Düşmən azərbaycanlıların neqativ obrazını yaratmaq üçün əlinə düşən hər fürsətdən istifadə edir. Yəni Azərbaycanda ailə-məişət zəminində baş verən hadisələri də tirajlayaraq yaymaqla dünyaya göstərmək istəyirlər ki, baxın, bu ölkədə ata oğulu, ana qızını, qardaş qardaşı öldürür, azərbaycanlılar vəhşi xalqdır və biz onlarla birlikdə yaşaya bilmərik".

A.Həsrətin sözlərinə görə, burada məsələnin bir başqa tərəfi də var, həmin məlumatlar ermənilərə öz mediamız vasitəsilə çatır. Bu cür məlumatların Azərbaycan mediasında tirajlandığını deyən A.Həsrət qeyd etdi ki, ailə-məişət zəminində baş verən bu kimi olaylar bütün cəmiyyətlərdə, o cümlədən də Ermənistanda da baş verir. O bildirdi ki, Ermənistanda bu kimi hallar adi hala çevrilib. "Bu kimi kiçik məsələləri, ailə-məişət zəminində baş verən hadisələri bizim media bu şəkildə tirajlamamalıdır. Əslində, bu xəbərləri bilmədən, yaxud düşünmədən ermənilərə özümüz ötürürük. Digər tərəfdən də bilirsiniz ki, antiAzərbaycan qüvvələri də durmadan çalışırlar. Təəssüflər olsun ki, onların içində azərbaycanlılar da var. Onlar bu cür xəbərləri bir yerə toplayıb yaymaqla məşğuldurlar. Məqsəd Azərbaycan hakimiyyətini gözdən salmaqdır. Ən kiçik bir hadisə baş verdikdə belə onu Azərbaycan hakimiyyəti ilə əlaqələndirməyə cəhd edirlər. Hardasa suda kimsə boğulur, kimsə kimisə döyür, kimsə haradansa kiçik oğurluq edir, bütün bunları Azərbaycan hakimiyyətinin ayağına bağlayıb, hakimiyyəti gözdən salmağı hədəfə götürüblər. Yəni bu cür məlumatların tirajlanması öz-özünə baş vermir. Bizim media ailə-məişət zəminində baş verən hadisələri yayarkən diqqətli olmalıdır. Tutalım, haradasa bir oğul atasını döyüb öldürüb, bunun bizim cəmiyyət üçün nə qədər əhəmiyyəti var? Düzdür, bu hadisə arzuolunmaz və acı hadisədir. Ümumiyyətlə, bu olay bizim cəmiyyətimiz üçün xarakterikdirmi? Əlbəttə ki, deyil. Azərbaycanda belə hadisələr 5-10 ildə baş verir, ya vermir, bizim mətbuat bunu xəbərə çevirir, yayır, düşmən də yatmır, hər an mediamızı izləyir və bu kimi xəbərləri tirajlayıb yayır. Əmin olun ki, ermənilər Azərbaycanda ailə-məişət zəminində baş verən bu məlumatları yalnız öz medialarında yaymaqla kifayətlənmirlər, bu tip xəbərləri bülletenlər, toplular şəklində nəşr edib bütün dünyaya yayırlar. Ona görə də mediamız bu cür xəbərləri yayarkən diqqətli olmaldır" - deyə A.Həsrət vurğuladı.

*"Düşmən azərbaycanlıların neqativ obrazını yaratmaq üçün əlinə düşən hər fürsətdən istifadə edir"*

***İradə SARIYEVA***

**Son aylarda Ermənistanda hadisələrin gedişi burada yaxın tezlikdə geniş miqyaslı sosial ixtişaşların başlanmasını istisna etmir. hazırda işğalçı ölkədə etirazların miqyası genişlənir. Elə bu günlərdə ölkənin şərqində yerləşən Cermuxda sakinlər yolları bağlayıblar.**

# Ermənistanda Nikol Paşinyanın Nikol Paşinyana qarşı qoyulduğu durum başladı...

Cermuxda etiraz aksiyası keçirən əhali parlament qarşısında polis tərəfindən saxlanılanların azadlığa buraxılmalarını tələb edib.

Narazı kütlə bildirib ki, Ermənistanda mədən işlərinin fəaliyyəti ilə məşğul olan xarici şirkətlər ölkəni tərk etsinlər. Onların fikrincə, bu şirkətlərdə çalışanların hüquqları pozulur. Bundan başqa ərazidəki dağ-mədən ərazilərində aparılan iş zamanı partlayışların olması nəticəsində yaşayış sahələrində yeraltı təkanlar baş verir. Bunun nəticəsində əksər yaşayış yerlərində torpaq sürüşmələri qeydə alınıb. Etirazçılar bildirib ki, dəfələrlə problemlə bağlı rayon icra hakimiyyətinin başçısı Vardan Ovanesyana şikayət olunsa da icra başçısı məsələnin həll olunması üçün onun heç bir səlahiyyətinin olmadığını qeyd edib. Bu fonad Rusiyanın "regnum.ru" portalı yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Amulsar qızıl mədənində işlərə icazə vermək qərarı onun sonrakı siyasi taleyində həlledici ola bilər: "Amulsar mədəninin istismarının haçansa qatı əleyhdarı, ekoloqların ruporu, müxalif Paşinyan bu gün artıq qızıl hasilatını yeniləməyə icazə verib, bununla da öz tərəfdarlarının kəskin mənfi qıcığını doğurub. Paşinyanı hakimiyyətə gətirmiş xalq ondan, ən azı, qabaqkı hökumətin sosial-iqtisadi xəttini davam etdirməməyi gözləyirdi. Amma, bu olmadı. Elə həmin pensiya islahatı, adamların cibini kəsən həmin vergiqoyma yenilikləri - və bütün bunlar pisləşən ekologiya fonunda. Durum o dərəcədə ciddiləşə bilərmi ki, Nikol Paşinyan postunu tərk etməli olar? Bəli, çünki çoxları onda xilaskar görürdülər, onun hər bir yeni hərəkəti isə məyusluq doğurur. Mədənin istismarı haqda qərar hətta hakim"Vətəndaş müqaviləsi" partiyasının özündə də üzvləri iki düşərgəyə böldüsə, deməli, tezliklə yeni etiraz hərəkatlarının yeni liderlərini görərik. İstisna deyil ki, etirazlar sürəkli olacaq, qışın gəlişilə fəallıq azalacaq, hakimiyyət də hər yolla onu boğacaq: həbslər, saxlamalar, aksiya keçirməyə qadağalar. Bu, yeni inqilaba, ya da ola bilsin, hətta çevrilişə dönüşə bilərmi - hələlik hər hansı bir proqnoz vermək çətindir. Amma Paşinyan ekoloqların etiraz əhvali-ruhiyyəsiylə bağlı məsələni həll etməyəcəyi halda baş nazir kürsüsünü verməli olacaq. Bu etiraz əhvalatında, ən azı, daha bir oyunçu var - parlament divarlarından və hökumətdən qıraqda qalmış, əvvəllər hakim Ermənistan Respublika Partiyasının təmsilçiləri. Onlar etiraz əhvali-ruhiyyəsini qızışdırmaqdan ötrü belə bir əlverişli imkanı əldən buraxmazlar. Nəticədə Paşinyan küçədə görünə bilər və tamamilə ağlabatandır ki, Amulsar qızıl mədəninin istismarı haqda öz hökumətinin qərarını ləğv etmək və ölkənin günbəgün pisləşən ekologiyasının qorunması uğrunda uğurla mübarizə aparar".

Ermənistanın "1in .am" sayıt da Paşinyan ətrafında halqanın daraldığını yazır: "Vəziyyət sürətlə gərginləşir. Baş nazirin ötən il üçün verdiyi vədlər əsasən yerinə yetirilməyib və ya Paşinyan tərəfindən edilən iddialar, yumşaq deyilsə, reallıqdan uzaqdır. Nikol Paşinyan bir il bundan öncə belə demişdi: "Biz sizə söz vermişdik ki, Ermənistanı talayanların hamısını növbə ilə birbir müəyyən edəcəyik və biz növbə ilə Ermənistan Respublikasının bütün talançılarını müəyyən edirik. Ancaq mən demək istəyirəm ki, bizim korrupsiya ilə mübarizədə mühüm vəzifəmiz həbsxanaların doldurulması deyil, sizdən oğurlanan pulların qəpiyinədək xalqa və dövlətə qaytarılmasıdır". Ötən il ərzində korrupsiyaya görə ittiham hökmləri verilməyib, keçmiş sistemin ikonik şəxsləri, Robert Köçəryan istisna olmaqla, azadlıqdadırlar və sakitcə oğurlanmış pullarla kef çəkirlər, bir sıra hallarda da yeni hakimiyyətlə açıq və ya örtülü formada əməkdaşlığa girirlər. Məsələn, Paşinyanın "əsrin rüşvətxoru" elan etdiyi, 14 milyon dollar rüşvət almaqda ittiham olunan sabiq təbiəti mühafizə naziri Aram Arutyunyan "etibarlı şəkildə" hüquq-mühafizə orqanlarından gizlənir. İndi elə alınır ki, korrupsiya əleyhinə ən səs-küylü ifşa işi kimi Manvel Qriqoryanın "konservləşdirilmiş ət" işi görünür.

Əlbəttə, indi çoxları deyə bilər ki, problem cinayətkar oliqarxiya sisteminin qalığı olan məhkəmə hakimiyyətidir, onlar keçmişdə baş vermiş cinayətlərin açılmasına və dövlətin modernləşdirilməsinə əhəmiyyətli şəkildə mane olur. Bu, əlbəttə, belədir, lakin bu problemi bir il bundan öncə bizim hamımızdan çox Nikol Paşinyan dərk etmişdi. Ötən ilin tarixi mitinqində o demişdi: "Bütünlükdə mən bu yaxınlarda bizim məhkəmə sisteminin bugünkü durumunu təsbit etməyi, ciddi müzakirə etməyi və keçid ədalət mühakiməsi orqanlarının yaradılması haqqında qərar qəbul etməyi son dərəcə vacib hesab edirəm. Çünki keçid dövrü üçün yaradılacaq ədalət orqanları bizə yalnız ona görə vacib deyil ki, bizim məhkəmə sisteminin korrupsiyalaşmış üzvlərinin çoxuna xalq inqilabı çatmır. Həm də ona görə vacibdir ki, bizim qanunvericiliklə bağlı müəyyən çətinliklər yarana bilər. Məsələn, "Qanunsuz varlanma haqqında" qanun 1 iyun 2017-ci ildən qüvvəyə minib və həmin tarixədək oğurlananların geri qaytarılmasında formal olaraq çətinliklər yarana bilər".

İl ərzinddə heç nə dəyişməyib: hökumətin cinayətkarcasına hərəkətsizliyi kontekstində, məhkəmə hakimiyyəti açıq şəkildə inqilab gündəliyinə meydan oxuyur, hökumət isə konseptual qərarlarının olmaması ucbatından özünün atdığı emosional və düşünülməmiş addımları ilə, mahiyyətcə, keçid ədalət orqanları alətlərinin tətbiq edilməsi prosesini batırıb, Konstitusiya Məhkəməsi ətrafında yaranmış böhran dalana dirənib. Bundan əlavə, hökumətin peşəkarlığının olmaması və özünü itirməsi ona gətirib çıxarıb ki, "1 Mart işi" legitimliyini itirmə təhdidilə qarşı-qarşıya qalıb.

Ancaq Nikol Paşinyan və komandasının "Axilles dabanı" olaraq xarici siyasət qalmaqda davam edir. Bəzən belə təəssürat yaranır ki, hakimiyyət zirvəsində xarici siyasət haqqında dərin təsəvvürü olan adam yoxdur. Bir il bundan öncə Nikol Paşinyan mitinqdə demişdi: "Birmənalı olaraq deyə bilərəm ki, erməni-rus münasibətləri nəinki pis deyil, respublikaçılara və onların əlaltılarına rəğmən, yaxşıdır və getdikcə daha yaxşı olacaq. Bu, misli olmayan əməkdaşlıq olacaq və bu, onun konkret sübutu olacaq ki, biz ardıcıl şəkildə, bəli, münasibətlərimizin yeni səviyyəyə yüksəldilməsi istiqamətində gedirik".



Baş nazir tərəfindən qeyd edilən "misilsiz" layihə Suriyaya, necə deyərlər, humanitar missiya göndərmək imiş. Yeri gəlmişkən, hətta Serj Sarkisyan belə ona qarşı çıxmışdı. Lakin Nikol Paşinyan Putini məmnun etmək üçün buna razı oldu. Paşinyan bu "misilsiz" addımı ilə, əlbəttə, Putinin etibarını bərpa edə bilmədi, lakin erməni-amerikan münasibətləri, mahiyyətcə, böhrana girdi. Erməni-rus münasibətləri heç vaxt belə - bu qədər böhranlı olmayıb. Moskva nəinki Robert Köçəryanı açıq şəkildə dəstəkləyir və "1 Mart işi"ndə adı keçən iki mühüm şəxsə sığınacaq verib, cinayət ortaqları olan general Miqran Poqosyanı ekstradisiya etməkdən imtina etməklə, İrəvana şapalaq vurub.

Lakin ötən il ərzində hakimiyyətin dəyərlər sistemi və təsəvvürləri kardinal şəkildə dəyişib. Bu, daha pisdir. Əgər Nikol Paşinyan bir il bundan öncə Aqordakı mitinqdə yalnız demokratiyadan danışırdısa, hazırda hətta Cermuxa getməkdən imtina edərək, Amulsar qızıl mədənindən danışır. Vəziyyət kəskin dəyişib, Nikol Paşinyan Nikol Paşinyana qarşı qoyulur. Və bu, cəmi bir il ərzində baş verib". Bütün bunlar Ermənistanın bütün istiqamətlərdə ciddi şəkildə iflasa uğramaqda olduğunu aydınnümayiş etdirir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın Babakərdə üstünlük qazandığını ermənilər etiraf etmək zorunda qalır...

**Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu istiqamətində baş verən olaylar gündəmin əsas mövzuları sırasında qalmaqda davam edir. Ermənistanda hesab edirlər ki, rəsmi səviyyədə etiraf olunmasa da, bu yaşananlar Azərbaycanın cəbhədə növbəti üstünlüyü sayıla bilər. Çünki Dağlıq Qarabağ münaqişəsinin həlli aktiv hərbi mərhələyə keçəcəyi təqdirdə Azərbaycan mövqe üstünlüyündən effektiv şəkildə yararlanaraq, düşmənə kifayət qədər sərt zərbələr endirə biləcək.**

Xatırladaq ki, bu günlərdə yayılan məlumatlardan bəlli olduğu kimi, Dövlət Sərhəd Xidmətinin qüvvələri Babakər dağında dörd yüksəklikdə möhkəmlənib. Nəticədə Qazax rayonunun təmas xəttinə ən yaxın İkinci Şıxlı kəndinin əhalisi indi daha təhlükəsiz şəraitdə yaşamaq imkanı qazanıb. Eyni zamanda, yeni mövqelər Ermənistan ordusunun həmin istiqamətdəki mövqelərinə və onlara aparan yollara, Gürcüstan-Ermənistan qaz kəmərinin keçdiyi əraziyə nəzarət etmək imkanı verir. Eləcə də Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının yeni müdafiə mövqelərinə qalxması nəticəsində min hektarlarla ərazi nəzarət altına götürülüb. Erməni hərbçi ekspert Taron Ovanesyan da təsdiq edir ki, Ermənistanın Tavuş vilayəti istiqamətində Azərbaycan qüvvələri Babakər dağı istiqamətində əhəmiyyətli şəkildə irəliləyib və möhkəmlənib. Həmin dağ Azərbaycan-Ermənistan-Gürcüstan sərhəd üçbucağında yerləşir, dəniz səviyyəsindən 700 metr hündürlüyə malikdir. Onun bildirdiyinə görə, mövqelərin irəli çəkilməsindən əvvəl tərəflərin postları arasında məsafə 3.5 kilometrə çatırdı. İndi isə həmin məsafə 600 metrə qədər azalıb: "Azərbaycan öz mövqelərini sərhədə tərəf 500-600 metr irəli çəkib".

Digər erməni hərbi ekspert Qraç Petrosyants bildirir ki, Azərbaycan cəbhə xəttində mövqelərini yaxılaşdırır: "Elə mətbuatda yayılan məlumatlara əsasən, Azərbaycan tərəfi həmin mövqelərdə irəliləyib. Bundan sonra Ermənistan müdafiə nazirinin müavini müəyyən fəaliyyətlər həyata keçirildiyi barədə bəyanat verib. Lakin döyüş mövqelərinin irəli çəkilməsi haqqında həm Azərbaycan, həm erməni tərəfi hər hansı məlumat verirsə, bu, həqiqətən də həmin ərazidə müəyyən işlərin aparılmasına dəlalət edir. Bəzi məlumatların gizlədilməsinin heç bir əhəmiyyəti yoxdur və buna misal olaraq, aprel döyüşlərində itkilərin həddən çox olmasına baxmayaraq, rəsmi orqanlar tərəfindən cəmi 18 itki barədə məlumat verilməsi də doğru deyil. Yaxud aprel döyüşlərində ordumuzun nəzarətində olan itirilmiş ərazilərin 700 və ya 800 hektar olması, lakin hərbi ekspertlərin biri tərəfindən 470 hektar sahə olduğu bildirilməsi də hakimiyyətin siyasi zərər görməməsi üçün atılan addımlardır. Müdafiə Nazirliyinin reallığı gizlətməklə belə yanaşmasını səhv hesab edirəm. Açıq-aşkar məlum olan məlumatların gizlədilməsi Müdafiə Nazirliyinin köhnə rəhbərliyin dövründə olduğu kimi qalmaqda davam etdiyini göstərir". O, Ermənistan Müdafiə Nazirliyinin addımlarını səhv hesab etdiyini də bildirir. Jurnalistin, "Sərhəddə baş verənləri mövqe müharibəsinin xüsusiyyətləri, yoxsa məcburi iş hesab etmək olar" deyə səsləndirdiyi növbəti suala cavabında hərbi ekspert baş verənlərin mövqe müharibəsi ilə heç bir əlaqəsi olmadığını ifadə edib: "Bu, ümumi müharibə qanunlarıdır. Hərb sənəti tarixi bucağından baxsaq, Ermənistanda baş verənlər artıq 30 ildir ki, səngər müharibəsi vəziyyətini xatırladır. Bu termini istifadə etmək olar, ona görə ki, mövqe müharibəsinin əslində bir balaca başqa məzmunu var. Biz 30 ildir ki, davam edən döyüş növbətçiliyi üzrə səngər müharibəsi vəziyyətindəyik. Sadəcə, müəyyən məqamlarda gərginlik artır, diversiya əməliyyatları həyata keçirilir, fəal döyüş əməliyyatları baş verir. Müharibə bitməyib, müharibə fasilələrlə davam edir. Bizim müharibənin öz xüsusiyyətləri var. Biz səngər müharibəsi vəziyyətindəyik, 30 ildir davamlı olaraq erməni əsgəri səngərdə xidmət aparır. Biz səngərdən hələ də çıxa bilməmişik. Müdafiə naziri Tonoyanın "biz fasiləsiz müdafiə vəziyyətindən xilas olmaqla hərbi əməliyyatları rəqibin ərazisinə daşıya biləcək bölmələrin sayını artırmalıyıq", deyə verdiyi bəyanata toxunmaq istəyirəm. Ona məlum olan qədər Ermənistanın müdafiə siyasətində hər hansı əsaslı dəyişikliklər baş verməyib. Heç bir hərbi doktrinada, heç bir müdafiə siyasətində hər hansı hüquqi platformada, heç bir sənəddə hələ də dəyişiklik aparılmayıb. Bunlar layihə, plan olmaqla qanunlar qəbul edildiyi halda büruzə veriləcək layihələrdir. Lakin hazırda Ermənistanın əsas sənədi olan hərbi konsepsiyasında heç bir dəyişiklik aparılmayıb. Erməni tərəfi çox geri qalıb, sadəcə bəyanatlar verməklə informasiya müharibəsində qalib gəlmək mümkün deyil. Bəyanatlar verilməsinin vaxtı çoxdan başa çatıb. Bütün cəmiyyət Azərbaycanın yemlərini udduğumuzu dərk edir". Ekspert Ermənistan Müdafiə Nazirliyinin yaydığı dezinformasiyaların işlək olmadığını və bu kimi bəyanatların heç bir məna daşımadığını da xatırladıb. Məhz belə vəziyyətdə Azərbaycanın getdikcə artan üstünlüyünün Ermənistan üçün çox baha başa gələcəyini də Qraç Petrosyants açıq şəkildə etiraf edir. Eyni mövqeni digər erməni hərbi ekspert, ehtiyatda olan polkovnik Hayk Nahapetyan də bölüşür. O qeyd edib ki, sərhəddə baş verənlər Ermənistanın Çinari kəndi və burada erməni ordusunun mövqelərinin Azərbaycan tərəfindən daha rahat şəkildə hədəfdə saxlanmasına imkan verir. Ekspert vurğulayır ki, bu durumda keçmişdə müxtəlif bəhanələrlə xidmətdən yayınmış dövlət rəsmilərinin Çinari ilə bağlı fikirlər səsləndirməsi absurddur və bu onların işi deyil, Müdafiə Nazirliyi isə açıq mənzərəni təqdim etməlidir: "Azərbaycanın bu ərazidə bütün istiqamətlərdə dominantlıq edən mövqeyi var, Odundağ dağı iki vilayətin üzərində yerləşir, bizim mövqelərimiz onun altındadır, mən həmin ordu korpusunda xidmət etmişəm, hər şeyi yaxşı bilirəm. İndi deyirlər ki, artıq Çinari atəşə tutulmayacaq, bu yalnız o halda ola bilər ki, daha çox əraziləri götürmüş olaq. Çinari və Koti rəqibin ovcundadır. Uşaq baxçası, məktəb, market və kəndlilərə sual verin, görün nə deyirlər".

"Daşnaksütyun" partiyasının üzvü Artur Yeğiazaryan da məsələyə maraqlı münasibət bildirərək qeyd edir ki, Ermənistan Silahlı Qüvvələrinin fəaliyyəti ilə bağlı artıq eyforiyaya düşmək lazım deyil. Onun sözlərinə görə, Ermənistan Müdafiə Nazirliyi açıqlama verib xalqda yaranan təşvişi aradan qaldırmalıdır: "Əlbəttə, hər birimiz yaxşı xəbərlər eşitmək istəyirik, lakin son zamanlar yayılmış məlumatlar sərhəd qoşunlarımızın fəaliyyətinə ciddi mane ola və təhlükə yarada bilər. Biz mülki əhali sadəcə müşahidəçilərik və istənilən xəbərə qarşı müsbət və ya mənfi emosionallıq nümayiş etdiririk. Və biz bilmək istəyirik ki, sərhəd məntəqələrində nə baş verir". O qeyd edib ki, yüksək vəzifəli, qeyri-hərbi dövlət rəsmilərinin bu barədə status yazması isə daha təhlükəlidir. Artur Yeğiazaryan, müşahidələrinə əsasən, Azərbaycanın sərhəddə üstünlüyünü artırdığını da etiraf edib.

Baş verənlərin Ermənistanda belə böyük narahatlıq yaratması isə səbəbsiz deyil. Çünki sərhəddə baş verənlər, yuxarıda qeyd olunduğu kimi, Qarabağ münaqişəsi aktiv hərbi fazaya keçəcəyi təqdirdə Azərbaycana mühüm üstünlüklər qazandıracaq. Hazırda yeni mövqelərdə mühəndis işləri nəticəsində həyata keçirilən tədbirlər ilk növbədə şəxsi heyətin təmas xətti boyunca təyin olunan ərazilərə vaxtında və gizli şəkildə irəliləməsi üçün əlverişli şərait yaradır. Bununla yanaşı, görülən işlər bölmələrin çevik manevr etməsinə də imkan verir. Bu tədbirlər nəticəsində arsenalda olan texnika və silahların manevr qabiliyyətini və istifadə effektivliyini artırmaq, düşmənin şəxsi heyətini, texnikalarını, avadanlıqlarını və maddi vəsaitlərini müxtəlif və daha əlverişli mövqelərdən zəmanətlə məhv etmək üçün real şərait mövcuddur. Düşmənin müdafiə zolağında və onun ətrafındakı ərazilərdə yerləşən hərbi bölmə və obyektlərin kəşfiyyatı, onların aşkarlanması və izlənməsi də xeyli asanlaşıb. Bundan başqa, tutulan yeni mövqelərdə sərhədlərin müdafiə və mühafizəsi gücləndirilmiş rejimdə, əlavə silah, avadanlıq və texnikaların cəlb edilməsi həyata keçirilir. Bütün bunlar isə olduqca mühüm sayılır. Çünki Ermənistanın siyasi hakimiyyətinin mövqeyi üzündən Dağlıq Qarabağ münaqişəsinin yaxın tezlikdə aktiv hərbi fazaya keçməsi qətiyyən istisna olunmur. Bunu rus hərbi ekspert Pavel Felgenhauer də təsdiq edir. Onun fikrincə, situasiya təhlükəlidir, münaqişə aktiv fazada olmasa da tüstülənməkdədir. Ekspert qeyd edir ki, yaxın zamanlarda münaqişənin eskalasiyasını gözləməyə dəyər.

Hərbi politoloq Aleksandr Perenciyev isə hesab edir ki, Azərbaycan qüvvələrinin Qazax istiqamətində irəliləməsi İrəvanı Qarabağa dair real danışıqlara məcbur etməyə hesablanmış addımdı: "Azərbaycan Ermənistana təzyiq yolları tapmağa çalışır ki, onu Qarabağ məsələsində güzəştə məcbur edə bilsin. Bununla bağlı olaraq Bakı nümayiş etdirir ki, Azərbaycan ərazilərini geri almağa qadirdir". Beləliklə, proseslərin inkişaf istiqaməti cəbhə xəttində, digər təmas nöqtələrində Azərbaycanın düşmən üzərində hərbi üstünlüyünün sürətlə artmaqda olduğunu aydın şəkildə nümayiş etdirir. Bunlardan qarşı tərəfin müvafiq nəticə çıxarıb münaqişənin həlli istiqamətində konstruktiv mövqeyə gəlməməsi fonunda isə Azərbaycanın düşmənə yönəlik daha sərt addımlar atması qaçılmaz sayılır. Hər halda, Qazax istiqamətində sərhəddə baş verənlər fonunda Azərbaycan bunu bir daha düşmənə əyani şəkildə göstərib.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Fərəc Quliyevin adı Xalq Cəbhəsi tarixinin ən mübahisəli məsələsində yenidən hallandı...

**Müsavat Partiyasının başqanı Arif Hacılı "Facebook" profilində özünün videoçıxışını paylaşıb. Çıxış 1993-cü ilin fevral ayında Gəncə Şəhər İcra Hakimiyyətinin binası qarışında olub. Həmin dövrdə keçmiş korpus komandiri Surət Hüseynov açıq şəkildə AXC iqtidarına qarşı çıxmışdı. Gəncədə gərginlik yaşanırdı.**

A.Hacılı həmin videonu özünün qeydi ilə paylaşıb və videonun altında müxtəlif şərhlər yazılıb.

A.Hacılının 26 il öncəki həmin videoda dediyi sözlərlə tanış olaq: "Məsuliyyətimlə əminəm ki, Surət Hüseynov Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin ardıcılıdır, tərəfdarıdır. Onun prezident seçilməsinin tərəfdarı olub, tərəfdarlarını ona səs verməyə çağırıb. Əbülfəz Elçibəy bunu kifayət qədər bilir. Söz gəzdirən, ara vuran adamlardan fərqli olaraq, dövlətin müxtəlif istiqamətlərdən informasiya yığmaq imkanları var".

A.Hacılı dolayısı ilə Gəncəyə getməklə həmin vaxtdakı qiyamın qarşısını aldığını diqqətə çatdırır. O, həmin vaxt dövlət katibi işləyən, sonralar baş nazir postunu tutan Pənah Hüseynin onun Gəncəyə getməsinə razılıq verdiyini və ona bu sözləri dediyini yazır: "Uşaqların mənim boynuma, get".

Daha sonra Müsavat başqanı ardıcıllıqla rəylərdə fevralın ilk on günlüyündə baş verənləri yazıb. Burada isə əsas diqqətçəkən məqam mərhum prezident Əbülfəz Elçibəy Gəncədə olarkən yaşananlardır. A.Hacılı rəylərin birində 1993-cü ilin fevralında AXC İcraiyyə Komitəsinin S.Hüseynovun əleyhinə bəyanatını populizm adlandırıb. Hətta buna görə o dövrdə AXC İcraiyyə Komitəsinin sədri olmuş Fərəc Quliyevi də suçlayıb. O, İcraiyyə Komitəsinin 9 fevralda qiyamçı S.Hüseynovun və ona dəstəkçi olan müdafiə naziri Rəhim Qazıyevin xəyanətkar elan olunmaları ilə bağlı bəyanatlarının yayımlanmasına P.Hüseynlə telefon danışığı zamanı etiraz etdiyini bildirir. Səbəb kimi də Elçibəyin həmin vaxt Gəncədə olmasını göstərir.

Sitat: "Pənah Hüseyn vəziyyəti soruşduqdan sonra Fərəc Quliyevin imzası ilə bir bəyanatın olduğunu, bu bəyanatda S.Hüseynovla Rəhim Qazıyevin xəyanətkar elan olunduğunu dedi. Onların bu bəyanatın televiziya ilə səslənməsini tələb etdiklərini bildirdi. Mənim rəyimi soruşdu. Mən belə bəyanatın indi televiziya ilə səslənməsinin çox ziyanlı olduğunu, hər şeyin artıq həll olunduğu zamanda belə bəyanatın əks effekt verəcəyini, həm də indi prezidentin Gəncədə olduğu vaxt bunu etməyin yolverilməzliyini Pənah Hüseynə dedim. O mənimlə razılaşdı. Belə bəyanatın indi səslənməsinin necə qorxunc nəticələrinin olduğunu bildiyim üçün çox narahat oldum. Bir müddət sonra özüm Pənah Hüseynə zəng vurub bu söhbətin necə yekunlaşdığını soruşdum. O bəyanatın artıq televiziya ilə səsləndirildiyini bildirdi. Mən qəti etiraz etdim, ona mənimlə razılaşdığını xatırlatdım. Cavabı qısa oldu: "Hər şey məndən asılı deyil".

Göründüyü kimi, Arif Hacılı S.Hüseynovun AXC hakimiyyətinə qarşı daha radikallaşmasında AXC İcraiyyə Komitəsinin verdiyi bəyanatın rolunun böyük olduğunu xatırladır. Biz məsələyə aydınlıq gətirmək üçün Fərəc Quliyevin özü ilə əlaqə saxlamağa cəhd etdik. Təəssüf ki, gün ərzində etdiyimiz zənglərə o cavab vermədi. AXC İcraiyyə Komitəsinin məlum bəyanatının zamanında verilib-verilməməsi ilə bağlı klassik cəbhəçilərdən olan Bünyamin Qəmbərlinin mövqeyini öyrəndik. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, istənilən halda, S.Hüseynov Əbülfəz Elçibəyə qarşı məsələdə çox kiçik fiqur idi: "Mən həmin hadisələrə S.Hüseynov və ya qiyamda rolu olan digər şəxslərin münasibəti kontekstindən yanaşılmasının tərəfdarı deyiləm. Onlardan bu məsələdə sadəcə alət kimi istifadə ediblər. Əbülfəz Elçibəy hakimiyyətini yıxmaq istəyən böyük bir beynəlxalq güc formalaşmışdı. Bu, daxildən çox, xarici faktorla bağlı olan məsələ idi. İran və Rusiya xüsusilə həmin hakimiyyətin qalmasını istəmirdi. Çünki Elçibəy qısa bir zamanda İranı silkələdi. Rusiya ilə bərabərhüquqlu ölkə kimi müqavilə imzaladı. Fərəc Quliyevin AXC İcraiyyə Komitəsi adından verdiyi bəyantla bağlı isə münasibət birmənalı deyil. Mənim də fikrimcə, həmin bəyanatın verilməsi zaman baxımından doğru seçilməmişdi. Yəni onu verməmək də olardı. Ancaq

## *Bünyamin Qəmbərli: "Həmin bəyanatın verilməsi zaman baxımından doğru seçilməmişdi"*



## *"Bəyanatın verilməsindən qabaq cərəyan edən hadisələrə niyə diqqət olunmur?"*

bu heç nəyi dəyişən deyildi. Həmin bəyanat sanki bir bəhanə rolunu oynadı. Bəyanatın verilməsindən qabaq cərəyan edən hadisələrə niyə diqqət olunmur? Birmənalı şəkildə Elçibəy hakimiyyətinin devrilməsinə hazırlıq gedirdi. Bunu kimin əli ilə olsaydı da edəcəkdilər. Surət olmayacaqdı, Əlikramı qızışdıracaqdılar. Bunlar yalnız yardımçı faktorlardır. Məsələnin əsl mahiyyəti Elçibəy hakimiyyətini devirmək olub və bu məsələdə xarici dövlətlər olduqca fəallıq nümayiş etdiriblər".

"Sonradan Fərəc Quliyevlə həmin bəyantın niyə verilməsilə bağlı bir müzakirələr apardınızmı" sualına Bünyamin bəy belə cavab verdi: "Belə bir imkan olmadı. Çünki hadisələr çox sürətlə inkişaf etdi. Artıq bəyanatın müzakirəsinə lüzum duyulmurdu. Həmin məsələnin indiki zamanda məhz müxalif fəallar tərəfindən gündəmə gətirilməsində iki məqsəd var. Birincisi, Fərəc Quliyevi siyasi rəqib kimi "vurmaq"dır. İkincisi isə həmin hadisələrlə bağlı məsuliyyəti öz üzərlərindən atmaqdır. Yəni özlərini maksimum təmizə çıxarmaq istəyindən söhbət gedir. Belə gedişlərlə xalqı aldatmaq olmaz. Hakimiyyət qoruna bilməyibsə, burada hamının məsuliyyəti var. Kimsə yaxasını kənara çəkə bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

**Dünya birjalarında neftin son dövrlərdə daha sürətlə dəyişən qiyməti bu gün təkcə hasilatçıları yox, həm də istehlakçıları ciddi narahat edir. Çünki qiymətlər az qala hər gün dəyişdiyindən, istehlakçılar da iqtisadi strategiyalarını formalaşdırmaqda, qiymət siyasətini müəyyənləşdirməkdə çətinlik çəkir.**

# Dünya neft bazarında hər ötən gün Azərbaycanın dəqiq qiymət siyasəti apardığını sübut edir

Belə görünür ki, hadisələrin qeyd edilən səpkidə inkişafı artıq ciddi narahatlıq predmetinə çevrilib. hətta iş o yerə çatıb ki, neftin qiymətinin ucuzlaşmasına ciddi diqqət ayıran ABŞ da artıq bu istiqamətdə siyasətini dəyişmək məcburiyyəti ilə üz-üzədir.

Qeyd edək ki, cari ildə mövcud qiymətlər hələlik Azərbaycan üçün hansısa təhdid yaratmır. Çünki büdcədə neftin qiyməti 60 dollardan götürülüb və il ərzində "Azeri Light" markalı neftin bir barrelinin qiyməti bundan aşağı olmayıb. Yəni Azərbaycanın qiymət siyasəti özünü doğruldur. Hazırda "Azeri Light"ın bir barrelinin qiyməti 63 dollara yaxındır. Amma il ərzində qiymətlərin bir qədər də yüksəlməsi gözlənir. Buna əsas səbəb, yuxarıda qeyd olunduğu kimi, indi hətta ABŞ-ın belə neft sahəsində baş verənlərdən ciddi narahat olmasıdır. Real vəziyyət göstərir ki, ABŞ-ın neft hasilatında rekord qırıldığı bir vaxtda onun neft şirkətləri iflasa uğramaq təhlükəsi ilə üz-üzə qalıb. "RİA Novosti" portalı yazır ki, bu şəraitdə ABŞ hökuməti də neftin qiyməti ilə bağlı siyasətini dəyişməli olacaq: "Dünya üzrə neftə olan tələbat hasilatdan geri qalır, hazırda tələbat hər il 1,2 faiz artır, 20 il əvvəl isə təxminən üç dəfə sürətlə artırdı. Bununla yanaşı, ABŞ-da "qara qızıl"ın hasilatı artmaqdadır, il ərzində hasilat təxminən 12 faiz (10,96 milyon bahreldən 12,45 milyon barhelə) artıb. 2020-ci ildə isə hasilatın əlavə olaraq 7,5 faiz, yəni 13,39 milyon barrelə qədər artacağı gözlənir.

Bu vəziyyət, xüsusən kiçik şist neft şirkətləri üçün təhlükəlidir. Mayda Beynəlxalq Enerji Agentliyi xəbərdarlıq edib ki, şist neft şirkətlərinin rekord səviyyədə fəallığına baxmayaraq, onları qarşıda yeni bazar şoku gözləyir. Agentliyin hesablamalarına görə, 2014-2015-ci illərdə olduğu kimi, 2020-ci ilin əvvəllərində də dünya neft bazarında təklif bolluğu müşahidə ediləcək, hasilat tələbatı sutkada təxminən iki milyon barrel üstələyəcək.




Qeyd etmək lazımdır ki, şist neft yataqları adətən tez tükənir. Bu səbəbdən şist neft şirkətləri daim yeni quyular qazmalıdırlar ki, hasilatı və gəlirliliyi qoruyub saxlasınlar. Buna görə də şist neft şirkətlərinin inkişafa və səhmdarlara ödəmək üçün pulları qalmır. Digər bir yandan isə neft qiymətinin 60 dollar ətrafında var-gəl etməsi vəziyyəti daha da çətinləşdirir. Qeyd edək ki, neft qiymətləri keçən il hətta 75 dolları keçirdi.

Beynəlxalq Enerji Agentliyinin analitikləri əmindirlər ki, OPEC-in neft hasilatını aşağı səviyyədə saxlamaq səyləri kifayət etmir. Yəni qiymətlər düşməyə davam edir. Bu isə şist neft şirkətləri üçün pis xəbərdir. Qeyd edək ki, texnologiyaların inkişafı və yüksək neft qiymətləri 2010-2014-cü illərdə şist neft hasilatına sərmayə qoyuluşunda artıma səbəb olub. Lakin 2015-ci ildə "qara qızıl" kəskin şəkildə ucuzlaşıb və şist neft hasilatçıları "sağ qalmaq" üçün mübarizəyə başlayıblar. Həmin vaxt borcları ümumilikdə 70 milyard dolları keçən yüzə yaxın neft hasilatçısı bir il ərzində müflis olub.

Amerikanın "Haynes and Boone" hüquq şirkətinin hesablamalarına görə, 2015-ci ildən etibarən borcları 106 milyard dolları keçən 192 neft hasilatçısının müflisliyi qeydə alınıb. Bundan başqa, neft sənayesində xidmət göstərən 185 şirkətin də (65 milyard dollar borc ilə) müflisləşdiyi qeyd olunur. Analitiklər bütün bunlara səbəb kimi iqtisadiyyatda müşahidə olunan tənəzzülün fonunda enerji daşıyıcılarının qiymətlərinin aşağı olmasını göstərir.

Hazırda buna oxşar bir hadisə baş verməkdədir. Apreldən iyunadək "WTI" neftinin qiyməti 23 faiz düşüb. Nəticə etibarilə isə neft quyularının qazılması üzrə aparıcı şirkətlərdən biri "Weatherford" mayda müflisləşdiyini elan edib. Bundan başqa, neft və qaz axtarışı və hasilatı üzrə ixtisaslaşmış "California Resources" şirkəti də problemlərlə üzləşib. Bu sənayenin kiçik oyunçuları - "Bristow Group", "PHI", "Jones Energy" və "Rex Energy" şirkətləri isə borclarının ağırlığı altında iflasa uğrayıblar. Bu vəziyyəti sərmayədarlar düzəldə bilərdi, lakin görünür, onlar şist neft layihələrindən üz döndəriblər. "Haynes and Boone" şirkətinin analitikləri deyib: "Hələ 2015-ci ilin qiymət böhranı zamanı zərər çəkmiş bir sıra maliyyə problemli hasilatçıların sərmayədarları, çox güman ki, xam neft qiymətlərinin artmasının faydalı olacağına və vəziyyəti düzəldəcəyinə ümidlərini itiriblər". On il ərzində 40 nəhəng şist neft şirkəti bu sənayenin layihələrinə qazandığından 200 milyard dollar çox yatırıb. Minlərlə şist neft quyusu sərmayədarlara vəd ediləndən az neft hasil edir. Keçən il Uoll-Strit bu sahəyə 2017-ci ildən iki dəfə az sərmayə yatırıb. Amerikanın aparıcı "Goldman Sachs" investisiya bankı isə xəbərdarlıq edib ki, 2025-ci ilə şist neft artıq iqtisadi əhəmiyyətini itirəcək.

Sərmayələrin azalmasının səbəblərindən biri odur ki, şist yataqlarında hasilat sürətlə azalır və istehsalatı yüksək səviyyədə saxlamaq üçün şirkətlər daim yeni quyular qazmalıdır. Bu isə böyük xərclər deməkdir. Digər bir səbəb isə qazıntı zamanı ekoloji məhdudiyyətlər və ya alternativ yanacaq növlərinə keçidlə bağlıdır. Nyu-Yorkun "Matrix Asset Advisors" sərmayə şirkətinin prezidenti Devid Kats qeyd edib: "Sərmayədarlar narahatdırlar ki, neft şirkətləri pullarını tənəzzülə uğrayacaq bir sahəyə xərcləyir. Bu isə elektromobillərin və hibrid avtomobillərin populyarlığının artması ilə qaçılmaz olub". Dünya üzrə neft bolluğunun qiymətlərin düşməsinə səbəb olduğu bir şəraitdə şist neft şirkətləri daim pul itirir. Onlar yalnız səhmlərini satmaqla və yeni borclar götürməklə biznesdə qala bilir.

Uzun illər boyu ABŞ xarici neft hasilatçılarından azad olmaq arzusu ilə yaşayıb. Ölkə bu arzusuna çatıb: ABŞ-ın neft şirkətləri hazırda rekord həcmdə xam neft və qaz istehsal edir və hətta ixracatçılar sırasında liderə çevriliblər. Lakin "The New York Times" qəzetinin vurğuladığı kimi, ABŞ şirkətləri üçün bu azadlığın qiyməti həddindən artıq böyük olub". Belə vəziyyətdə məhz neft şirkətlərinin basqısı altında ABŞ hökumətinin də qiymətləri yüksəltməyə çalışacağı tamamilə gözlənilən sayılır. OPEC+ formatının məsələyə müdaxiləsi isə qiymətlərin əhəmiyyətli dərəcədə yüksəlməsini tətikləyə bilər. Ukraynalı ekspert Aleksandr Oxrimenko hesab edir ki, hələlik OPEC dünya neft bazarında əsas oyunçudur. O qeyd edir ki, Azərbaycan da OPEC+ formatının təşəbbüskarı və iştirakçısıdır. Ekspert Bakıda keçirilən OPEC və qeyri-OPEC ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclasında bu təşkilatın bazarın inkişaf tempinin təhlili əsasında hazırlanmış təqdimatı və Müştərək Texniki Komissiyanın hasilat göstəricilərindən bəhs edən hesabatın müzakirə edilməsini bu xüsusda yüksək qiymətləndirir. O vurğulayır ki, Azərbaycan dünya üçün faydalı olan bu prosesin həm təşəbbüskarı, həm də fəal iştirakçısı kimi qlobal enerji təhlükəsizliyinə böyük töhfə verdiyini növbəti dəfə təsdiq etmiş oldu. Vaxtında OPEC-lə əməkdaşlıq bu mənada Azərbaycanın düzgün strategiya seçiminin nəticəsi olaraq da qiymətləndirilir.

***Nahid SALAYEV***

**Azərbaycan hökuməti süni qiymət artımına yol verilməməsini daim diqqət mərkəzində saxlayır, bu məqsədlə lazımı tədbirlər görülür. "Trend"in məlumatına görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov mətbuat nümayəndələrinin iştirakı ilə ərzaq məhsullarının satışı ilə məşğul olan bir neçə ticarət mərkəzində aparılan reyd zamanı deyib.**

# Süni qiymət artımı üzərində nəzarətin gücləndirilməsi hökumətin əsas xəttinə çevrilir



Kənd təsərrüfatı məhsullarının keyfiyyəti, qiyməti və əhaliyə göstərilən xidmətin səviyyəsi ilə maraqlanan Ə.Əhmədov bildirib ki, Azərbaycan Prezidentinin və hökumətinin apardığı siyasətin əsas məqsədi ölkədə daxili istehsalın inkişaf etdirilməsi, xüsusilə kənd təsərrüfatı məhsullarının istehsalının artmasıdır.

Baş nazirin müavini qeyd edib ki, son illər Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi əhəmiyyətli dərəcədə artıb. Beləliklə də əhalinin ərzaq təhlükəsizliyi problemi demək olar ki, həllini tapıb. Hazırda ölkə vətəndaşlarının ərzaq və qidaya olan tələbatının əksər hissəsi yerli istehsal hesabına ödənilir.

Aqrar sektorda böyük irəliləyiş olduğunu vurğulayan Ə.Əhmədov ölkədə məhsul bolluğunun təmin edildiyini, eyni zamanda, istehsal edilən məhsulların bir hissəsinin xaricə ixrac olunduğunu söyləyib. Diqqətə çatdırıb ki, Azərbaycanın ixrac potensialının formalaşmasında və inkişaf etdirilməsində çox böyük rol oynayan sahələrdən biri də kənd təsərrüfatıdır. Bu sahənin inkişafı fermerlərin məşğullunun artırılması ilə ilə yanaşı, ölkənin ərzağa olan ehtiyacını daha dolğun ödəməyə imkan yaradacaq. Digər məqsəd isə Azərbaycan vətəndaşının ərzaq qıtlığından əziyyət çəkməməsidir.

Vurğulanıb ki, Azərbaycan hökuməti dövlət başçısı İlham Əliyevin tapşırığı ilə bu istiqamətdə lazım olan bütün zəruri tədbirləri görür. Belə ki, müəyyən yerlərdə satış yerləri, logistik mərkəzlər və ticarət mərkəzləri yaradılıb. "Burada xidmətlərin səviyyəsi və keyfiyyəti bir-birindən fərqlənir. Bütün bunların hamısı müsbət haldır. Eyni zamanda, bizi maraqlandıran əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda məhsul bolluğu əsasında məhsulun qiymətinin mümkün qədər aşağı salınması təmin edilsin. Biz istəyirik ki, "tarladan-süfrəyə" zəncirində iştirak edən hər iki tərəf - fermer də, istehlakçı da məmnun qalsın. Fermerlər istehsal etdikləri məhsulları müvafiq bir qiymətə sata bilsinlər ki, ailə büdcələrini formalaşdırsınlar, digər tərəfdən isə istehlakçı üçün də məhsulun qiyməti əlverişl olmalıdır", - deyə Baş nazirin müavini qeyd edib.

Reyd zamanı üç müxtəlif ticarət mərkəzində olduqlarını, məhsulların qiymətlərinin və xidmətlərin bir-birindən fəqrləndiyini bildirən Əli Əhmədov əhalinin müxtəlif təbəqələrinin ehtiyaclarının ödənilməsi üçün müxtəlif səviyyəli xidmətlər və məhsulların təklif edildiyini, eləcə də yüksək qiyməti olan məhsullara rast gəlindiyini deyib: "Biz məhsulların qiymətində müşahidə etdiyimiz fərq barədə də düşünməliyik. Xüsusilə bazardakı məhsullarla yarmarkadakı məhsulların qiyməti arasında çox böyük fərq nəzərə çarpır. Hökumət bunun üzərində ciddi şəkildə düşünməlidir. Biz qiymət artımının qarşısını bolluq yaratmaq yolu ilə almalıyıq. Kimsə qiyməti süni şəkildə artırmağa çalışarsa, Hökumət iqtisadi tədbirlər görməlidir. Ən təsirli tədbirlərdən biri o ola bilər ki, satış mərkəzlərinin və vasitəçi mərkəzlərin sayı artırılsın. İnsanlara xidmət göstərən satış mərkəzləri, habelə fermerdən məhsulu alıb bu mərkəzlərə çatdıran vasitəçilərin sayı nə qədər çox olarsa, qiymət də lazımınca tənzimlənər".

Əli Əhmədov diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti süni qiymət artımına yol verilməməsinə çox ciddi nəzarət edir. Hökumət də bu məsələni daim diqqət mərkəzində saxlayır. Çalışmalıyıq ki, vətəndaş məhsulun keyfiyyətindən, xidmətdən və qiymətindən məmnun qalsın.

Əsas məsələlərdən birinin də ictimai nəzarətin təmin edilməsi olduğunu deyən Baş nazirin müavini bunun ən etibarlı vasitələrindən birinin də mətbuat olduğunu vurğulayıb. KİV-in bu işdə fəal olmasını və Hökumətə dəstək göstərməsini tövsiyə edib.

**Bakı küçələrinin işıqlandırılması məsələsi zaman-zaman müzakirə obyekti olub. Şəhərin bəzi yerlərində küçələr yaxşı işıqlandırılsa da, elə küçələr var ki, gecələr işıqlandırılmır. Hətta Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən son müşavirədə ölkə başçısı paytaxt küçələrinin zəif işıqlandırılması ilə bağlı tənqidi fikirlər söyləyib.**

# Bakı küçələrinin işıqlandırılmasında yeni problemlər - gündüz saat 1-dək işıq yanan yerlər var, heç yanmayan vacib yerlər var...



***Rəsul Cahangirli:*** *"Günün günorta çağı küçə işıqları yanırsa, buna cavabdeh qurum izahat verməlidir"*

Dövlət başçısı bu sahədə ciddi problemlərin olmasına diqqət çəkib, xüsusilə şəhər ətrafının işıqlandırmadan kənarda qaldığını vurğulayıb: "Bakıda küçə işıqlandırılması hələ də lazımi səviyyədə deyil. Şəhərin mərkəzi təbii ki, işıqlandırılır, ancaq bəzi yerlərdə küçə işıqlandırılması yoxdur. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir".

Ancaq son vaxtlar bu sahədə başqa bir problem özünü daha çox göstərməkdədir. Problem ondadır ki, son zamanlar gecə vaxtı bəzi küçələrin işıqlandırılması və mərkəzi yolları işıqlandıran dayaqlarda lampaların gündüzlər söndürülməməsi müşahidə edilir. Görürsən ki, gündüz saatlarında elektrik enerjisinin boşuna sərfi müşahidə olunur. Məsələn, dəfələrlə müşahidə edilib ki, saat 11-dir, amma küçə işıqları boşu-boşuna yanır. Hansı ki, səhər saat altı tamamda küçə və magistrallarda işıqlar söndürülməlidir. Nəzərə alsaq ki, yay fəslində hava tez işıqlanır, o zaman küçə işıqlarının bu qədər gec söndürülməsi dövlətə zərərdən başqa bir şey deyil. İstər şəhərin mərkəzində, istərsə də şəhərkənarı küçə və prospektlərdə belə hallar tez-tez yaşanır. Məsələn, Maştağa, Zabrat qəsəbələrində, Nərimanov heykəli ətrafındakı küçələrdə işıqların gündüzlər yanması tez-tez müşahidə edilir. Elə olur ki, gündüz saat 12 radələrinə qədər işıqlar yanılı vəziyyətdə olur. Küçələrin gündüz işıqlandırılmasının iqtisadi ziyanı ilə yanaşı, ekoloji zərəri də var. Ekoloqlar ehtiyac olmadığı halda küçə işıqlarının yandırılmasını məsləhət görmürlər. Çünki bu işıqlar ətrafa yüksək istilik verir.

Bakının elə küçələri var ki, işıqlandırılmasına ehtiyac olduğu halda, işıqlandırılmır.

"Azərişıq" ASC bəyan edir ki, küçələrin işıqlandırılması Səhmdar Cəmiyyətin səlahiyyətində deyil. Belə olan halda, problemin kökündə nə dayanır? Ekspertlər çıxış yolunu nədə görürlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, küçələrin işıqlandırılmasına cavabdeh olan qurum konkret müəyyən edilməli, bu qurumun məsuliyyəti artırılmalıdır: "Problem ondadır ki, küçələrin işıqlandırılmasına görə birbaşa cavabdehlik daşıyan strukturu müəyyənləşdirmək mümkün deyil. "Azərişıq" ASC deyir ki, bu onların səlahiyyətində deyil. Bakı Şəhər İcra Hakimiyyəti bəyan edir ki, işıqlandırılma infrastrukturunun qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə aiddir. Yəni qurumlar bu məsələdə məsuliyyəti bir-birinin üstünə atırlar. Hesab edirəm ki, başlıca olaraq bu məsələ yoluna qoyulmalıdır. Aidiyyəti qurumlar, əsasən də yerli icra hakimiyyəti orqanları bunu xüsusi nəzarətə götürməlidirlər. Günün günorta çağı küçə işıqları yanırsa, buna cavabdeh qurum izahat verməlidir. İzahat yoxdursa, o zaman müvafiq ölçü götürülməli və bununla bağlı sərt tədbirlər görülməlidir. Həqiqətən də gündüz vaxtı küçələrin saatlarla işıqlandırılması problemi var. Ona görə də küçələrdə monitorinq aparılmalı və bununla bağlı zəruri işlər həyata keçirilməlidir. Çünki bu sahədə bir sıra problemlər qalmaqdadır. "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib. Orada göstərilir ki, sutkanın qaranlıq vaxtı, məhdud görünmə şəraitində avtomobil yollarında müasir standartlara cavab verən süni işıqlandırma sistemləri, qurğu və vasitələri quraşdırılmalı, habelə yolların işıqlandırılmasında alternetiv enerji mənbələrindən istifadə təmin edilməlidir. Görünən odur ki, bəzi qurumlar proqramdan irəli gələn məsələlərin həllinə laqeyd yanaşırlar. Hesab edirəm ki, bu problemin həllinə nəzarət artırılmalıdır".

*"İzahat yoxdursa, o zaman müvafiq ölçü götürülməli və bununla bağlı sərt tədbirlər görülməlidir"*

***Vidadi ORDAHALLI***

# Prezidentin sərəncamı 7 ildir niyə icra olunmur - Göytəpə arxeoparkı...

## ***Fərhad Quliyev:*** *”Layihənin icrası ilə əlaqədar müəyyən problemlər yarandı”*

**Gəncə-Qazax bölgəsində ən iri arxeoloji abidələrdən biri olan, Tovuzda yerləşən Göytəpə qədim yaşayış yerində aparılan arxeoloji tədqiqatlar Göytəpə Neolit dövrü abidəsinin böyük əhəmiyyətə malik olduğunu meydana çıxarıb. Məlumat üçün bildirək ki, Neolit dövrünə aid olan Göytəpə qədim yaşayış yeri Neolit dövrünə aid digər təpələrin (Hacıəlləhmanlı, Hüseynqulu, Qarğalartəpə, Töyrətəpə) əhatəsində olub, bu günümüzədək ən yaxşı vəziyyətdə qalmış abidələrdən biridir.**

Elmi araşdırmaların nəticələrinə görə, Göytəpə qədim yaşayış yerinin Azərbaycanda və ümumən Cənubi Qafqazda e.ə. VI minilliyə aid son Neolit dövrünün inkişaf etmiş mərhələsini əks etdirən erkən kəndlərdən olduğu təsdiqlənir. Qeyd edək ki, 2012-ci ilin aprel ayının 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şimal-qərb bölgəsinə etdiyi növbəti səfəri zamanı Tovuz rayonu ərazisində Göytəpə Neolit dövrü abidəsinin ilkin nəticələri ilə tanış olmuşdu və abidənin əsaslı öyrənilməsi istiqamətində görülən işlərin yeni dövrün reallıqları prizmasından təşkil olunması məqsədilə AMEA yanında Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı 18 aprel tarixli Sərəncam imzalamışdı. Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı Azərbaysan Respublikası Prezidenti İlham Əliyevin 7 il bundan əvvəl imzaladığı Sərəncam indiyə kimi icra olunmayıb. Onu da vurğulayaq ki, Göytəpə Arxeoloji Parkının yaradılması üçün dövlət büdcəsindən vəsait də ayrılmışdı. lakin hələ də sözügedən arxeopark yaradılmayıb.

"İlkin sivilizasiyaları əks etdirən arxeoloji komplekslər (Göytəpə Neolit dövrü abidəsi-açıq səma altında arxeopark)" adlı layihənin müəlliflərindən biri olan tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyevlə əlaqə saxlayıb indiyə kimi Prezident sərəncamın hansı səbəbdən icra edilmədiyini və bu sərəncamın icrasında nə kimi problemlərin olduğunu öyrəndik.

**- Fərhad müəllim, 2008-ci ildə Sizin rəhbərliyinizlə Göytəpə qədim yaşayış yerində əsaslı arxeoloji qazıntılara başlanıb. Burada böyük arxeoloji qazıntı işləri həyata keçirilib.**

- Bəli. Bu olduqca unikal bir abidədir və onun barəsində dünyanın bir sıra nüfuzlu elmi jurnallarında maraqlı məlumatlar dərc edilib və bir sıra xarici mütəxəssislərin bu qədim abidə haqqında geniş məlumatı var.

**- Göytəpə abidəsi, eləcə də burada görülən işlər Prezident İlham Əliyevin də diqqətində idi, şəxsən onun özü 2012-ci ildə həmin abidə ilə tanış olmuşdu və Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı Sərəncam imzalamışdı. Bildiyimiz qədər, bu sərəncam hələ də icra olunmayıb. Sərəncamın icra olunmamasının səbəbi nədir?**

- Bəli, sərəncam hələ də icra olunmayıb. Cənab Prezident bu barədə 2012-ci ildə sərəncam imzalayıb. Biz həmin arxeoparkın formalaşdırılması, yaradılması ilə bağlı türkiyəli mütəxəssislərin birbaşa iştirakı ilə Azərbaycan Milli Elmlər Akademiyasında layihə hazırlamışıq. Sadəcə, layihənin icrası ilə əlaqədar müəyyən problemlər yarandı.



*”Bu problem əsasən Göytəpə abidəsinin üst örtüyünün qurulması ilə bağlıdır”*

**- Söhbət konkret olaraq hansı problemlərdən gedir?**

- Bu problem əsasən Göytəpə abidəsinin üst örtüyünün qurulması ilə bağlıdır. Çünki bəzi təkliflər vardı ki, abidənin üstü qurularkən dirəklərdən istifadə olunsun. Biz də, xarici mütəxəssislər də bu təklifin əleyhinə çıxdıq, onu qəbul etmədik. Həmin abidənin üst örtüyünün qurulması xüsusi yanaşma tələb edir. Yəni dirəklər olmamaq şərtilə xüsusi konstruksiya qurulmalıdır. Görəcəyimiz işin birinci mərhələsi bu idi.

**- Layihədə başqa hansı məsələlər əks olunmuşdu ki, onun yaradılması problemə çevrildi?**

- Görəcəyimiz işin ikinci mərhələsi abidənin ətrafında neolit kəndinin canlandırılması ideyası idi. Qazıntılar zamanı əldə edilən nəticələri biz orada yeni formatda qədim dövrün interyerini yaratmaq şərtilə Neolit dövrünü canlandırmalı idik. Yəni layihəmiz ikimərhələli bir layihə idi. Eyni zamanda da arxeopark ərazisində muzey tikilməsi nəzərdə tutulmuşdu. Burada həm neolit kəndinin canlandırılması, həm muzeyin tikilməsi çətin proses deyil, onları həyata keçirmək mümkündür. Əsas problem abidənin üst örtüyünün qurulması ilə bağlı olub. Təsəvvür edin ki, 9 metr hündürlüyündə təpədir və onun üstündə elə örtük qurulmalıdır ki, onun dayaq yeri abidənin üzərində olmasın. Bu istiqamətdə konstruksiyanın qurulması problem yaratdı. Bu məsələlər xeyli vaxt müzakirə edildi və sərəncamın icrası gecikdi. Faktiki olaraq, Göytəpə abidəsində tikinti işləri başlanmayıb. Konkret olaraq layihə və ideya ortadadır. Burada tədqiqatçıların üzərinə düşən işlər görülüb və bircə o işlərin həyata keçirilməsi qalıb.

**- AMEA tərəfindən işin icrası ilə bağlı hər hansı bir addımın atılması barədə nə deyə bilərsiniz?**

- Milli Elmlər Akademiyası tərəfindən bu məsələ yenidən müzakirə edilib. Bilirsiniz ki, ölkəmizdə Turizm Agentliyi yaradılıb. Ola bilsin ki, bu layihə Turizm Agentliyinin iştirakı ilə icra olunsun. Çünki sərəncamda da göstərilib ki, elmlə turizmin vəhdətini nəzərə almaq şərtilə bu layihə icra olunsun. O zaman belə bir agentlik yox idi, indi isə yaradılıb, təbii ki, bu qurumun da məsələyə öz yanaşması, konsepsiyası var. Biz ümid edirik ki, dövlət başçısının sərəncamı əsasında öz layihəmizi Turizm Agentliyinin iştirakı ilə həyata keçirə biləcəyik. Bu olduqca mürəkkəb layihədir. Bu, sadə bir məsələ deyil. Orada əsas məqsəd qazılmış sahələrin üzərində örtüyün qurulmasıdır. Ölkə başçısı da göstəriş vermişdi ki, bu məsələni həyata keçirin. Dirəklərlə qurulan örtüklər bizim yanaşmada qətiyyən qəbul edilmir. Biz onu qursaq da, sabah beynəlxalq qurumlar tərəfindən müsbət qarşılanmayacaq.

**- Hansı qurumları nəzərdə tutursunuz?**

- Biz Göytəpə abidəsini UNESCO-nun siyahısına daxil etmək istəsək və bununla bağlı UNECO-nun komissiyası ora gəlsə, bu örtüyü normal qəbul etməyəcək. Deyim ki, Göytəpə abidəsinin UNESCO siyahısına daxil edilməsi üçün əlimizdə bütün imkanlar var.

**- Belə anladıq ki, bu abidə bütün parametrlərinə görə bəşəriyyət üçün əhəmiyyətli abidədir.**

- Bəli. Göytəpə elmi baxımdan bütün dünyada Qafqaz neoliti anlamında tanınan etalon abidələrdən biridir. Bu abidə xaricdə kifayət qədər populyardır. Bilirik ki, elmi baxımdan biz o abidəni komissiyaya təqdim etsək, onlar bu abidəyə yüksək qiymət verəcəklər. Sadəcə olaraq, abidənin üzərində örtüyün qurulması, eyni zamanda da ətrafında xüsusi olaraq Neolit dövrünün xüsusiyyətlərini əks etdirən həmin dövrün interyerinə uyğun tarixi mənzərənin yaradılmasında diqqətli olmaq lazımdır.

**- Belə başa düşdük ki, bu olduqca bahalı layihədir və onun icrası üçün milyonlarla vəsait lazımdır. Səhv etmiriksə, layihənin icrası üçün dövlət tərəfindən maliyyə də ayrılmışdı. O maliyyə işi icra etmək üçün yetərli deyildi?**

- Bu işə 300 min manat məbləğində maliyyə ayrılmışdı. Bu da layihələndirmə işlərinə görə idi. Məndə olan məlumata görə, Milli Elmlər Akademiyası həmin vəsaiti istifadə etməyib. Bəli, ilkin olaraq layihənin həyata keçirilməsi baha idi. Açığını deyim ki, ümumiyyətlə, bahalı layihələrin əleyhinəyəm. Çünki çox vaxt bahalı layihələr həyata keçirilir və sonra baxırsan ki, bunun rentabelliyi olmur. Çox bahalı layihələrə ehtiyac yoxdur. Yəni problem layihənin bahalı olmasında deyil, bizə görə bu layihə elə də böyük vəsait tələb etmir. Məqsədimiz neolit kəndini canlandırarkən orada müasir texnologiyalardan istifadə etmək deyil, bu kəndin qurulmasında təbii materiallardan istifadə edilməlidir. Ağac və digər təbii materiallar da, örtüyün qurulması da elə də böyük vəsait tələb etmir. Sadəcə, məsələ həmin örtüyü necə qurmaqla bağlıdır. Bizi əsas bu məsələ düşündürür, yol tapmaq lazımdır ki, bu örtük hansı formatda olsun və onun qurulmasında dirəkdən istifadə edilməsin, bu qurğu abidənin qədimliyinə xələl gətirməsin.

**- Göytəpə Arxeoloji Parkının yaradılmasına nə zaman başlana bilər?**

- Bu sahədə artıq müəyyən canlanmalar var. Bu ilin may-iyul aylarında Göytəpə Arxeoloji Parkı ilə bağlı məsələ yenidən gündəmə gətirilib. Artıq bununla bağlı müzakirələr aparılıb. Tovuz rayon rəhbərliyi və yerli əhali bu parkın yaradılmasının arzusundadır. Onu da deyim ki, Göytəpə abidəsi ilə bağlı Azərbaycan Televiziyası tərəfindən film çəkilib və filmin təqdimatı sentyabrda olacaq. Həmin filmin çəkilişlərində xarici mütəxəssislər də iştirak etdilər. Bakının evsahibliyi ilə keçirilən UNESCO-nun Ümumdünya irs komitəsinin 43-cü sessiyası çərçivəsində İncəsənət Muzeyində Göytəpədə aparılan tədqiqatlarla bağlı sərgi keçirildi. Biz həmin sərgidə maraqlı materiallar təqdim etdik. Sərgiyə gələn mütəxəssislər bu arxeoloji eksponatlara, materiallara çox yüksək qiymət verdilər və bildirdilər ki, bunu dünyada tanıtmaq, təbliğ etmək lazımdır.

Qeyd etdiyim kimi, may-iyul aylarında bu məsələ yenidən gündəmə gətirildi və canlandırıldı. Akademiyada da müzakirə edildi. İndi Akademiyada belə bir fikir var ki, layihə Turizm Agentliyi və digər qurumlarla birgə müzakirə edilsin. İnanıram ki, bu ilin sentyabr ayından sonra bu istiqamətdə müəyyən işlər olmalıdır. Hamı bunu istəyir. Türkiyədə və başqa ölkələrdə buna bənzər layihələr artıq başa çatdırılıb. Biz də bu işi həyata keçirmək istəyindəyik, ümid edirəm ki, bu layihəni uğurla icra edə biləcəyik.

***İradə SARIYEVA***

# Yazıçılar Birliyində köklü islahatlar necə getməlidir? - Ən tərəfsiz saydığımız yazarla maraqlı söhbət...

***İbrahim İlyaslı:** "İslahatlardan danışarkən qeyd edim ki, Yazıçılar Birliyi xaricdəki ədəbi qurumlarla əlaqələr yaratmalı, ədəbi əlaqələrini daha geniş səviyyədə qurmalıdır"*

**Bildiyimiz kimi, Azərbaycan Yazıçılar Birliyi (AYB) zaman-zaman müzakirə obyektinə çevrilən yaradıcılıq qurumudur. Deyərdik ki, heç bir yaradıcılıq qurumu ətrafında AYB qədər diskussiyalar aparılmır. Həm yaşlı, həm də gənc nəslə mənsub olan yazarlar, yeri gəldi-gəlmədi, bu qurumu tənqid edir, onun rəhbərliyi ilə bağlı müxtəlif xoşagəlməz fikirlər səsləndirirlər.**

Bizim məqsədimiz bu qalmaqalları, fikir ayrılıqlarını gündəmə gətirmək, bunun səbəblərini araşdırmaq, növbəti bir qarşıdurmanın yaranmasına vasitə olmaq deyil. AYB-yə, burada mövcud olan yaradıcı mühitə, eləcə də baş verməsinə zərurət duyulan dəyişikliklər məsələsinə diqqətinizi çəkməkdir. Bu gün AYB-də ciddi islahatlara, dəyişikliklərə ciddi ehtiyac var. Bu qaçılmazdır. Çünki istənilən yaradıcılıq qurumu öz mövcudluğunu, aktuallığını və gərəkliliyini qoruyub saxlamaq üçün mütləq mənada reformlara getməlidir.

Bu mövzunu işləyərkən elə bir müsahib seçmək istədik ki, o, heç bir ədəbi çaxnaşmada iştirak etməyib, qalmaqallarla gündəmdə deyil, bu insan, sadəcə, ədəbiyyatla məşğuldur və sözün həqiqi mənasında, ədəbiyyat yaradır. Yəni onun AYB ətrafında baş verən qalmaqallara heç bir müdaxiləsi olmayıb.

Bu reformaların hansı formada həyata keçirilməsi ilə bağlı qərəzsiz, tərəfsiz, qeybətdən uzaq fikir bildirməsi üçün yazar seçmək bizim üçün çox çətin oldu. Bu baxımdan ki, yazarların böyük əksəriyyəti AYB-də baş verməli olan reformalara "Anar getməsə, bu qurumda heç nə düzəlməyəcək", yaxud "AYB bir qurum kimi ədəbi ictimaiyyətə gərək deyil" və s. münasibətlər bildirdi.

Bu məsələ ilə bağlı sizə hər zaman tərəfsiz, qərəzsiz mövqeyi ilə seçilən, heç bir qruplaşmada, heç bir ədəbi cəbhədə çaxnaşma yaratmayan bir qələm adamının, Mədəniyyət Nazirliyinin Əli Kərim adına Poeziya Evinin rəhbəri, AYB üzvü, tanınmış şair-tərcüməçi İbrahim İlyaslının prosesə yanaşmasını təqdim edirik.

**- İbrahim müəllim, son zamanlar AYB-də reformların həyata keçirilməsi ilə bağlı fikirlər gündəmə gətirilir. Sizcə, AYB-də köklü islahatlar hansı şəkildə getməlidir?**

- Ümumiyyətlə, dünya təcrübəsində belə qəbul olunub ki, hər zaman bütün sahələrdə islahatlar həyata keçirilməlidir. Ədəbiyyatla bağlı qurumlarda da bu prosesin baş verməsi zaman-zaman izlənilib. Azərbaycan Yazıçılar Birliyində də reformların həyata keçirilməsi vacibdir və bu, zamanın tələbidir. Bu baş verərsə, bu halı normal qarşılamaq lazımdır. Çünki zaman, dövr dəyişir. Zamanla, dövrlə ayaqlaşmaq baxımından AYB-də də islahatların aparılmasına ehtiyac var. Bizdə insanlar islahatlar deyəndə bunu yalnız kadr dəyişikliyi şəklində anlayırlar. Əslində isə elə deyil. Yazıçılar Birliyi aparatı üzvləri ilə birlikdə bir az da canlanmalıdır. Bu qurum öz fəaliyyətini daha geniş müstəviyə keçirməlidir. İslahatlardan danışarkən qeyd edim ki, Yazıçılar Birliyi xaricdəki ədəbi qurumlarla əlaqələr yaratmalı, ədəbi əlaqələrini daha geniş səviyyədə qurmalıdır. Yeni beynəlxalq əlaqələrin qurulması həm ədəbiyyatımızın xeyrinə olar, həm də Birliyin daha da inkişaf etməsinə, öz işini müasir tələblər üzərində qurmasına şərait yaradar. Azərbaycan Yazıçılar Birliyinin fəaliyyətində mövcud olan xırda boşluqların hamısı doldurulmalıdır.

**- Nələri nəzərdə tutursunuz?**

- Məsələn, bu gün müasir Azərbaycan şair və yazıçılarının xarici ölkələrdə daha geniş səviyyədə təbliğ olunması bu islahatların tərkib hissəsi ola bilər. Xüsusən də Yazıçılar Birliyi bədii tərcümə məsələsində irəliləyişlər əldə etməlidir. Bilirik ki, ölkəmizdə bütün sahələrdə islahatlar həyata keçirilir və bu islahatların da çox uğurlu nəticələri var. Bu baxımdan, Yazıçılar Birliyində də islahatlar niyə getməməlidir, təbii, getməlidir.

**- AYB-də gəncləşmə siyasətinin həyata keçirilməsi də arzuedilən islahatların tərkibinə daxil olmalıdırmı?**

- Mən bütün yaradıcılıq qurumlarında gəncləşdirmə siyasətinin həyata keçirilməsinin tərəfdarı olmuşam. Bu gün də hesab edirəm ki, Yazıçılar Birliyində də gəncləşdirmə baş verməlidir. Bütün zamanlarda, bütün təşkilatlarda yeni nəslin irəli çəkilməsi, onların müxtəlif postlarda yerləşdirilməsi normal haldır. Mənə elə gəlir ki, AYB-də gəncləşdirmə məsələsi ilə bağlı addımlar atır. Deyə bilmərik ki, burada gənclər çalışmır, gənclərin fəaliyyətinə şərait yaradılmır. Hökm deyil ki, gənclər birinci, ikinci şəxs funksiyasını yerinə yetirsinlər. Bu gün AYB-nin ədəbi orqanlarında çoxlu sayda gənc çalışır, Birliyin aparatında da gənclər təmsil olunur.

**- İbrahim müəllim, Birliyin ədəbi orqanlarında da islahatlar aparılmasına ehtiyac varmı?**

- Birincisi, ədəbi orqanlarımızın tirajı çox aşağıdır və bu da çox acınacaqlı bir haldır. "Ədəbiyyat" qəzeti də, digər ədəbi orqanlar da dövlət tərəfindən maliyyələşdirilir. Amma buna baxmayaraq, bu ədəbi orqanların tirajı azdır. Qələm dostlarım məndən inciməsinlər, mən bu məsələyə tamamilə qərəzsiz bir mövqe göstərirəm. Hesab edirəm ki, Birliyin ədəbi orqanlarında da islahatlar həyata keçirilməli, bu redaksiyalarda canlanma, dinamiklik olmalıdır. Bəzən redaksiyada otururlar və soruşanda ki, jurnal niyə zəif çıxır, cavab verirlər ki, yaxşı yazı gətirmirlər. Məsələ yaxşı yazı gətirməkdə deyil. Müəllifləri maraqlandırmaq, qonorarlarını bir qədər artıq vermək lazımdır ki, onlar maraqlı yazılar yazsınlar. Eyni zamanda, redaksiyaların əməkdaşları daha yaxşı müəlliflər və daha yaxşı yazılar axtarışına çıxmalıdırlar. AYB orqanı olan qəzet və jurnalların tirajları ciddi şəkildə artırılmalıdır. Təsəvvür edin ki, Yazıçılar Birliyinin 2 min nəfərə qədər üzvü var, amma Birliyin orqanı olan jurnallar 300-500 tirajla çap olunur. Bu o deməkdir ki, AYB üzvlərinin sayı qədər jurnal çıxmır. Bu jurnallar heç yazarların özünə çatmır, o ki, qala kənar oxuculardan umasan. Bu çox təzadlı bir rəqəmdir. Fikrimcə, "Ədəbiyyat" qəzetinin fəaliyyətində xeyli dönüş var. Bütövlükdə, ədəbi orqanlar öz fəaliyyətlərində ciddi dəyişikliklər etməlidirlər.



*"Birliyin ədəbi orqanlarında da islahatlar həyata keçirilməli, bu redaksiyalarda canlanma, dinamiklik olmalıdır"*

**Bilirsiniz, bəzən Yazıçılar Birliyindən onun funksiyasından kənarda olan bir şey istənilir. Bu məsələ də var. Birlik üzvləri özləri aktiv olsunlar, Birliklə bağlı fikir və təkliflərini səsləndirsinlər. Kim onların qarşısını alır ki?**

**- Qarşıdan AYB-nin XIII qurultayı gəlir, reformların bundan sonra həyata keçirilməsinə ümid edirsinizmi?**

- İstəyirəm ki, qeyd etdiyim sahələr üzrə AYB-də islahatlar həyata keçirilsin. Mən qurultay öncəsi müsahibələrimdə, yazılarımda, çıxışlarımda, AYB rəhbərliyi ilə söhbətlərimdə bu barədə fikrimi açıq bildirəcəyəm. Mən ədəbi proseslərin içində olduğum üçün, bu işlərin həyata keçirilməsini istəyirəm.

Yazıçlar Birliyinin fəaliyyətinin daha uğurlu, daha güclü olması maraq dairəmdədir. Ona görə də hesab edirəm ki, 2020-ci ildə biz bu islahatları gözləyə bilərik. İndi o islahatların hansı səviyyədə aparılacağını deyə bilmərəm, ancaq düşünürəm ki, Azərbaycan Yazıçılar Birliyində reformalar baş verəcək. Bu islahatlardan ədəbiyyatımızın qazanacağına şübhə etmirəm.

***İradə SARIYEVA***

# "Azercell"in Rəqəmsal Dünyası Lənkəranda

**On minlərlə insanı bir araya toplamağa müvəffəq olan "Azercell"in "Rəqəmsal Dünya bölgələrdə" layihəsinin səfərləri uğurla davam edir.**

Naxçıvan şəhərində başlayan tədbirlər silsiləsi Şərur, Ordubad, Quba, Xaçmaz, Qusar, Sumqayıt, İsmayıllı, Şamaxı, Qəbələ, Göyçay, Şəki, Zaqatala, Bərdə, Mingəçevir və Yevlax şəhərlərindən sonra Lənkəranda baş tutub. Yeddi mindən çox insanın qatıldığı tədbirdə şəhər sakinləri əyləncəli və intellektual oyunlarla yanaşı, virtual reallıq oyunlarında öz qüvvələrini sınamaq, hədiyyə qazanmaq, eləcə də "Azercell"in ən son trendlərə uyğun xidmətləri və məhsulları ilə tanış olmaq imkanı əldə ediblər.

"Azercell" nümayəndələri 16 avqust tarixində Mingəçevir şəhəri uşaq nevroloji sanatoriyasını, 19 avqust tarixində isə Lənkəran şəhəri, O.Mirzəyev adına qarışıq tipli uşaq evini ziyarət edib. "Azercell" tərəfindən uşaqlara məktəb ləvazimatları və digər hədiyyələr təqdim olunub. Fəaliyyətləri boyunca on minlərlə insana tibbi yardım etmiş "Mobil Göz" və "Mobil Diş" klinikaları Lənkəranda uşaq evinə təşkil edilən səfərə qoşularaq, 40-a yaxın uşağı müayinədən keçirib.



Qeyd edək ki, ölkənin mobil rabitə istifadəçilərinin əksəriyyətinin seçimi olan "Azercell" şirkəti yüksək sürətli interneti sayəsində ən son innovasiyaları daha da əlçatan etmək məqsədilə 2018-2019-cu illər ərzində respublika boyu 4G şəbəkəsini gücləndirib və genişləndirib. "Azercell" son yarım ildə Azərbaycanın telekommunikasiya sahəsinin inkişafına 63 milyon manatdan artıq vəsait yatırıb. Beləliklə də şirkət əhali əhatəsi dairəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% yüksəlişə nail olub.

Həmçinin, günlük LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə sürətində isə 16%-dək artım qeydə alınıb. Hazırda, Bakı və Abşeron da daxil olmaqla, ölkənin 60-a yaxın bölgəsi 4G şəbəkəsinin əhatə dairəsindədir.

"Azercell"in Rəqəmsal Dünyasını avqust ayının 21-i Qazaxda, 22-si Tovuzda, 24-ü Şəmkirdə və 26-sı Gəncədə gözləyin!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

**Bank Olmayan Kredit Təşkilatı "CASPIAN INVEST" MMC 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ TAMAMLANAN İL ÜZRƏ İCMAL MALİYYƏ HESABATLARI**
**(Azərbaycan manatı ilə)**

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | | 2018 | 2017 |
|---|---|---|---|
| **Qeydlər** | **4** | | |
| Faiz gəlirləri | | **34967.10** | **51199.53** |
| Faiz xərcləri | | **826.19** | **356.49** |
| **Faiz gəliri** | | **34140.91** | **50843.04** |
| Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatın yaradılması | | | |
| Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatın bərpası | | | |
| **Xalis faiz gəliri** | | **34140.91** | **50843.04** |
| Haqq və komissiya gəlirləri | 6 | 4890 | 4007.00 |
| Haqq və komissiya xərcləri | 6 | - | (3701.89) |
| Digər əməliyyat gəlirləri | 6 | 2127.35 | 1051.91 |
| Digər əməliyyat xərcləri | | | |
| **Xalis qeyri-faiz gəlirləri** | | **7017.35** | **1357.02** |
| Əməliyyat gəlirləri | | | |
| Əməliyyat xərcləri | 6 | (176388.84) | (204649.57) |
| Əməliyyat mənfəəti/zərəri | | (135230.58) | (152449.51) |
| Mənfəət vergisindən başqa gəlirdən çıxılan digər vergilər | 1 1 | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | | |
| Mənfəət vergisi | | | |
| **Xalis mənfəət/(zərər)** | | **(135230.58)** | **(152449.51)** |

**BALANS**

| **Aktivlər** | | **2018** | **2017** |
|---|---|---|---|
| Nəğd pul və pul vəsaitlərinin ekvivalentləri | 8 | 76577.90 | 138993.91 |
| Müştərilərə verilmiş kreditlər və avanslar (ehtiyatlar çıxılmaqla) | 5,9 | 441225.92 | 461983.35 |
| Balansdankənar aktivlər üzrə mümkün zərərlərinin ödənilməsi üçün məqsədli ehtiyatlar | 10 | (81936.84) | (81936.84) |
| Əsas vəsaitlər və qyri-maddi aktivlər | 12 | 12049.66 | 12349.66 |
| Büdcəyə artıq ödənilmiş vergilər | | 2159.64 | 2574.65 |
| Təxirə salınmış vergi aktivləri | | 10391.64 | 10391.64 |
| Sair aktivlər | 13 | 103811.90 | 86508.12 |
| **Aktıvlərin cəmi** | 13 | **564279.82** | **630864.45** |
| **Öhdəliklər** | | | |
| Maliyyə sektoru qarşısında öhdəliklər | | | |
| Məqsədli maliyyələşmələr | 19 | 0 | 14601.26 |
| Digər öhdəliklər | | 33812.85 | 30037.22 |
| **Öhdəliklərin cəmi** | | **338112.85** | **44638.48** |
| **Kapital və ehtiyatlar** | | | |
| Nizamnamə kapitalı | | 300000 | 300000 |
| Əlavə kapital | | 626.48 | 626.48 |
| Bölüşdürülməmiş mənfəət | | (45258.93) | 27719 |
| Cari ilin mənfəəti (zərəri) | | (135230.58) | (152449,51) |
| **Kapital və ehtiyatların cəmi** | | **530466.97** | **586225.97** |
| **Öhdəliklər, kapital və ehtiyatların cəmi** | | **(564279.82)** | **630864.45** |

**Bank Olmayan Kredit Təşkilatı "FIANS INVEST" MMC 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ İCMAL MALİYYƏ HESABATLARI**
**(Azərbaycan manatı ilə)**

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | QEYD-LƏR | 2018 | 2017 |
|---|---|---|---|
| Faiz gəlirləri | 4 | 82818.33 | 99835.37 |
| Faiz xərcləri | | (1844.45 | |
| **Faiz gəliri** | | **80973.88** | **99835.37** |
| Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatın yaradılması | | | |
| Faiz hesablanan aktivlər üzrə ehtimal olunan zərərlər üçün ehtiyatın bərpası | | | |
| **Xalis faiz gəliri** | | **80973.88** | **99835.37** |
| Haqq və komissiya gəlirləri | 6 | 9288.51 | 11602.10 |
| Haqq və komissiya xərcləri | 6 | (2603.03) | (2259..11) |
| Digər əməliyyat gəlirləri | 6 | 7095.88 | 11849.36 |
| Digər əməliyyat xərcləri | | | |
| **Xalis qeyri-faiz gəlirləri** | | **94755.24** | **21192.35** |
| Əməliyyat gəlirləri | | | |
| Əməliyyat xərcləri | 6 | 206277.20 | 198923.82 |
| Əməliyyat mənfəəti/(zərəri) | | (206277.20) | (198923.82) |
| Mənfəət vergisindən başqa gəlirdən çıxılan digər vergilər | 11 | 1838.05 | 1910.63 |
| Mənfəət vergisindən əvvəl mənfəət | | | |
| Mənfəət vergisi | | | |
| **Xalis mənfəət/(zərər)** | | **(111522.00)** | **(79646.77)** |

**Balans**

| **Aktivlər** | **Qeyd** | **2018** | **2017** |
|---|---|---|---|
| Nəğd pul və pul vəsaitlərinin ekvivalentləri | 8 | 97068.15 | 83574.24 |
| Müştərilərə verilmiş kreditlər və avanslar (ehtiyatlar çıxılmaqla) | 5,9,10 | 1496849.88 | 1373375.37 |
| Balansdankənar aktivlər üzrə mümkün zərərlərinin ödənilməsi üçün məqsədli ehtiyatlar | | | (62471,57) |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 12 | 189087.51 | 202681.29 |
| Büdcəyə artıq ödənilmiş vergilər | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| Sair aktivlər | 13 | 108704.13 | 98638.90 |
| **Aktivlərin cəmi** | | **1891709.67** | **1695795.23** |
| **Öhdəliklər** | | | |
| Maliyyə sektoru qarşısında öhdəliklər | | | |
| Məqsədli maliyyələşmələr | 19 | 1376543.61 | 1335743.61 |
| Digər öhdəliklər | | 224818.70 | 22238.76 |
| **Öhdəliklərin cəmi** | | **1601362.31** | **1357982.37** |
| **Kapital və ehtiyatlar** | | | |
| Nizamnamə kapitalı | | 300000 | 300000 |
| Əlavə kapital | | | |
| Bölüşdürülməmiş mənfəət | | 101869.36 | 117459.63 |
| Cari ilin mənfəəti (zərəri) | | -111522.00 | -79646.77 |
| **Öhdəliklər, kapital və ehtiyatların cəmi** | | **1891709.67** | 1695795.23 |

№ 147 (4045) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

23 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Robot it komandalara reaksiya verir

## Parlaq ağ işıq ürәyi müalicә edir - İnfarkta qarşı işıqterapiya

İşıqla müalicә ürәk xәstәliklәri vә infakrtın qarşısını ala bilәr. Bunu Kolorado Universitetinin alimlәri sübut edib. "Medicina.az" bildirir ki, onlar siçanlar üzәrindә aparılan tәcrübә zamanı aşkar ediblәr ki, gur, parlaq ağ işıq PER 2 zülal genini aktivlәşdirir. Elәcә dә, işığın tәsirindәn ürәkdә adenozin hasili çoxalır. Nәticәdә, siçanlar kәskin oksigen çatışmazlığı zamanı әlavә müdafiә qzanaraq, ürәk tutmasından tez çıxıblar. Növbәti mәrhәlәdә tәdqiqat sağlam könüllü insanlar üzәrindә aparılıb. Onlar 10 min lyumen intensivlikdә işığa 30 dәqiqә 5 gün ardıcıl baxıblar. Bu insanlardan müntәzәm olaraq qan analizi götürülüb. Mәlum olub ki, siçanlarda olduğu kimi insanda da PER 2 zülalı yüksәlib, triqliseridlәr azalır, metobolizm yaxşılaşıb. Alimlәr hesab edir ki, işıqla müalicә infarkt vә ürәk tutması keçirmiş xәstәlәr üzәrindә aparıla bilәr, elәcә dә, sağlam insanlar profilaktika mәqsәdilә ala bilәr.



**ABŞ-ın Florida Atlantik Universitetinin alimlәri dәrin tәlim vә süni intellekt texnologiyası vasitәsilә "Astro" adlı robot it yaradıblar.**

"ICTnews" bildirir ki, bu, kompüterlәşdirilmiş beyinlә tәchiz edilәn yeganә unikal robotdur. Mütәxәssislәrin sözlәrinә görә, "Astro" tәhlükәsizlik qüvvәlәrinә qadağan edilmiş әşyaların aşkarlanması, elәcә dә, tәbii fәlakәt yerlәrinin axtarışı zamanı kömәk üçün nәzәrdә tutulub. Ondan, hәmçinin bәlәdçi it kimi istifadә mümkündür. Mәlumata görә, "Astro" robotunu әvvәlcәdәn proqramlaşdırmağa ehtiyac yoxdur. Bunun әvәzinә o, süni beyin sayәsindә canlı küçük kimi öyrәnәcәk. Dәrin tәlim neyron şәbәkәsi faydalı tapşırıqların yerinә yetirilmәsi üçün minlәrlә növ tәcrübә mәnimsәyә bilir. "Astro" robotunun çoxlu ötürücülәrlә (kamerlar, yönәldilmiş mikrofon, qaz ötürücülәri vә radiolokasiya tәsvirlәri) tәchiz edilmәsi ona real vaxt rejimindә әtraf mühitlә ünsiyyәt qurmağa imkan verir. Tәdqiqatçıların sözlәrinә görә, "Astro" müxtәlif dillәri başa düşür, rәnglәri vә insan sifәtlәrini fәrqlәndirir, jestlәrә reaksiya verir vә uyğun dronlarla öz işini koordinasiya edir. "Astro" robotu beynin tәdqiqindә davranış, neyrofizioloji vә hesablama yanaşmalarının daxil olduğu koqnitiv neyrobiologiyada zәhmәtli iş vә geniş tәcrübә nәticәsindә әrsәyә gәlib.



# Bu cihaz depressiyanı müalicә edir - Dünyada ilk

**"Flow" şirkәti depressiyanın ev şәraitindә müalicә edәn cihazın satışına başlayıb. Sözügedәn cihaz beyin neyronlarını zәif elektrik boşalması ilә stimullaşdırır.**

"ICTnews" xәbәr verir ki, istehsalçının mәlumatına görә, depressiya diaqnozu qoyulmuş insanlarda adәtәn, beynin sol alın hissәsindә aşağı aktivlik müşahidә olunur. Yeni cihaz neyronların aktivlәşdirilmәsi vә aktivliyin bәrpası üçün onlara zәif elektrik siqnalı verir. "Flow" adlı cihaz görünüşcә virtual reallıq şlemini xatırladır. Şirkәtin nümayәndәlәri bildiriblәr ki, sözügedәn cihazın satışına icazә almazdan öncә onu 500 pasiyent üzәrindә sınaqdan keçiriblәr. Prosedurlar tәxminәn 30 dәqiqә davam edir, hәftәdә hәkim mәslәhәti olmadan 3-dәk seans tövsiyә edilir. Cihaz "iOS" sistemli qurğulardan xüsusi proqram vasitәsilә idarә olunur. "Flow" cihazının qiymәti 480 dollar, "HeadSpace" proqramına illik abunәnin dәyәri isә 95 dollar tәşkil edir. "Flow" - 2016-cı ildә tәsis edilmiş İsveçin tibbi texnologiya şirkәtidir. Şirkәtin baş direktoru psixoloq Daniel Manssondur.




## Elan

Cabbarov Müseyib Xansuvar oğluna mәxsus, Bakı şәhәri, Qaradağ rayonu, Lökbatan qәsәbәsi, Seymur Orucov küçәsi 13 ünvanında yerlәşәn qeyri-yaşayış sahәsinin RX №1333407 HDQHDӘDR-dәn çıxarışı itdiyi üçün etibarsız sayılır.



**Qoç** - Әmr vermәk, rәhbәrlik etmәk, kimәsә nәyisә tapşırmaq istәyirsiniz. Lakin uğur üçün bütün bunlar yetәrli deyil. İşinizi özünüz görmәlisiniz. İşlәyin vә әmәyinizdәn hәzz almağa başlayacaqsınız.

**Buğa** - Narahat olmayın, tәşvişә düşmәyin. Әsassız vә sәbәbsiz hәyәcan pis olmayan günü korlaya bilәr. Mühüm mәsәlәlәri özünüz hәll etsәniz, ikinci dәrәcәli vә xırda problemlәrin hәllini etibar etdiyiniz insana tapşırsanız, işdә uğur әldә edә bilәrsiniz.

**Әkizlәr** - Gün asan vә sadә olmasa da, uğurdan xali deyil. Başladığınız işlәri yarımçıq qoymayın. Hansısa istiqamәtdә mәqsәdinizә nail ola bilmәsәniz, inad etmәyin.

**Xәrçәng** - Hәddәn ziyadә әtalәtli vә astagәl olmayın. Nә etdiyinizi, nәyә can atdığınızı, hansı planı reallaşdırdığınızı dәqiqlәşdirin. Az sonra hadisәlәrin axarı göstәrәcәk ki, tәlәsmәk gәrәk deyilmiş.

**Şir** - Başqalarının bacarmadıqları işin öhdәsindәn gәlә bilәrsiniz. Amma eyforiyaya qatılmayın, qәhrәmanlıq etmәk, "dünyanı qurtaran adam" kimi görünmәyә çalşımayın. Başa vuracağınıza ümid etmәdiyiniz işlәrdә ciddi irәlilәyiş ola bilәr.

**Qız** - Nә istәdiyinizi dәqiq müәyyәnlәşdirin. Günün hadisәlәri nә vaxtdan bәri qәlbinizdә gәzdirdiyiniz istәyin gerçәklәşmәsinә rәvac verir. Amma istәklәr çox olmamalıdır. Sәhәr saatlarında vәziyyәt bir qәdәr әsәbi vә nevrozdur.

**Tәrәzi** - Gün xoş görüşlәr vәd edir. Köhnә dostla sәmimi söhbәt yaşananlara fәrqli aspektdәn baxmağa imkan verәcәk. Problemlәrin hәlli üçün düzgün qәrar verin, çәtin situasiyadan çıxış yolu arayarkәn hövsәlәsiz olmayın.

**Әqrәb** - Sәhәr saatlarında günün uğursuz olacağını düşünә bilәrsiniz. Amma az sonra situasiya dәyişәcәk. Vaxt keçdikcә pozitiv tәmayüllәrin tәsir gücü artır. Günün ilk yarısından müstәqil fәaliyyәt vә tәkbaşına iş üçün istifadә edin.

**Oxatan** - Hәr sahәdә vә hәr işdә hamıdan yaxşı olmağa çalışsanız da, bu, mümkün deyil. Әslindә, belә vәziyyәtә ehtiyac da yoxdur. Tәbii davranın vә bu, günün әn mәhsuldar, әn sәmәrәli variantıdır.

**Oğlaq** - Xırda mәsәlәlәrә vә önәmsiz detallara hәddәn artıq fikir vermәyin. Aktiv olun, qәtiyyәtli addımlar atın. Son vaxtlar sizi narahat edәn mәsәlәlәri nüfuzlu insanla müzakirә etmәk vә problemin hәll yollarını tapmaq imkanı yaranıb.

**Dolça** - İmprovizә etmәkdәn çәkinmәyin. Bu gün qәflәtәn atacağınız addımlar vә qәbul edәcәyiniz qәrarlar uğurlu ola bilәr. İşdә hәmkarlarla fikir ayrılığı, münaqişә istisna deyil.

**Balıqlar** - Qәfil uğurlar günüdür. Bu nailiyyәtlәr әhәmiyyәtli olmasa da, hәddәn ziyadә xoşdur. Peşәkar vә fәrdi mәziyyәtlәrinizә şübhәlәnәn insanlar indi bacarıqlarınızı etiraf etmәk mәcburiyyәtindә qalıblar.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Türkiyәdә balıqçılar beş metrlik akula tutub

**Türkiyәnin Çanaqqala vilayәtinin sahillәrindә balıqçılar beş metrlik akula tutub.**

"Trend" xәbәr verir ki, balıqçılar bir neçә saat toru qayığa çıxara bilmәyib. Akulanın bir ton çәkisi olduğu deyilir. Qeyd edәk ki, bir müddәt әvvәl Muğla sahillәrindәn balıqçılar iki әdәd 3 metrlik akula tutmuşdu.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.